Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 62 (8085) BAZAR, 17 mart 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# 102 qəsəbə, 58 min 203 mənzil

## Məcburi köçkünlərin sosial problemləri effektiv həllini tapır

Azərbaycanda prioritet istiqamət kimi müəyyənləşdirilən sosial siyasət bu gün cəmiyyətdə maddi rifah halının davamlı şəkildə yüksəlməsi ilə müşayiət edilməkdədir. Artan əməkhaqları və sosial müavinətlər, dövlət qayğısı nəticəsində insanların yüksələn gəlirləri Azərbaycanın sosial siyasətinin də bir çox ölkələrə nümunə ola biləcək səviyyəyə yüksəlməsinə rəvac verib. Bütün bunları ölkənin vətəndaşları kimi məcburi köçkünlər də öz gündəlik həyatlarında kifayət qədər aydın görür və hiss edirlər.

### Mənzil-məişət şəraiti yaxşılaşdırılan məcburi köçkünlərin sayı artır

Yaşanan sürətli inkişaf, məşğulluq, sosial problemlərin effektiv həlli qaçqın və məcburi köçkünlərin üzləşdikləri çətinliklərin böyük miqyasda aradan qalxmasına səbəb olub. Əlverişli sosial atmosferin yaradılması, ölkə miqyasında tərəqqinin sürətlənməsi, yeni iş yerlərinin açılması və əhalinin məşğulluqla təmin edilməsi bu gün məcburi köçkünlərin də davamlı, sabit artımlı gəlirləri üçün əsas yaradıb. Onların qarşılaşdıqları mənzil probleminin həllinə isə həmişəki kimi dövlət ən yüksək səviyyədə böyük diqqət və qayğı göstərib. Elə bunun nəticəsidir ki, təkcə keçən il 5 min 901 ailənin və ya 27 minə yaxın məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırılıb. Bundan əlavə, müvəqqəti məskunlaşma yerlərində aparılmış təmir işləri nəticəsində 158 ailənin mənzil-məişət şəraiti yaxşılaşdırılıb.

Ümumiyyətlə isə 2001-2018-ci illər ərzində qaçqın və məcburi köçkünlər üçün ölkənin 30-dan artıq şəhər və rayonunda Dövlət Neft Fondundan və digər mənbələrdən ayrılmış vəsait hesabına 3,5 milyon kvadratmetr sahəsi olan, bütün sosial-texniki infrastruktura malik fərdi evlərdən, çoxmərtəbəli binalardan ibarət 102 müasir məhəllə, qəsəbə və ya yaşayış kompleksi salınıb. Bunun da 3,3 milyon kvadratmetr yaşayış sahəsinə malik 97-si və yaxud 95 faizi son 15 ildə inşa edilib.

Bütün bunlar o deməkdir ki, həqiqətən də Azərbaycanda qeydə alınan dinamik sosial-iqtisadi inkişaf məcburi köçkünlərin də həyat səviyyəsinin yüksəlməsində özünü qabarıq şəkildə büruzə verir. Üzləşdikləri mənzil-məişət problemlərinin uğurlu həllini görən məcburi köçkünlər Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət fonunda doğma yurd yerlərinə qayıdacaqları günün də uzaqda olmadığını yaxşı bilirlər.

### Yeni evlərin inşasına genişmiqyaslı hazırlıq görülür

2001-2018-ci illər ərzində Ermənistandan olan 6 min qaçqının, yaxud 1330 ailənin və 294 min məcburi köçkünün, yaxud 56 min 873 ailənin, ümumilikdə isə 58 min 203 ailənin və ya 300 min nəfərə yaxın qaçqın və məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırılıb.

54 min 203 ailənin, yaxud 272 min nəfərin mənzilə sahib olması isə son 15 ilin payına düşür. Bu məqsədlə 2,6 milyard manat vəsait sərf olunub ki, bunun da 2,3 milyard manatı Dövlət Neft Fondunun payına düşür.

Bu arada onu da qeyd edək ki, məcburi köçkünlərin məişət problemlərinin həlli işində dövlətlə yanaşı, artıq özəl sektor da yaxından iştirak edir. Elə "Qobu Park" köçkün şəhərciyinin açılışı bunun bariz nümunəsidir. Xatırladaq ki, burada mindən çox ailə üçün yeni binalar, evlər tikilib, bütün infrastruktur yaradılıb. Ən əsası isə həmin layihə özəl sektor tərəfindən icra edilib və maliyyələşdirilib. Növbəti dövrdə də bu istiqamətdə özəl sektorun fəaliyyətinin genişlənməsi gözlənilir.

Ardı 3-cü səh.

## Azərbaycan ilə OPEC arasında əməkdaşlıq uğurla həyata keçirilir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 16-da Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) baş katibi Məhəmməd Barkindonu qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı Məhəmməd Barkindoya dəvəti qəbul etdiyinə və "OPEC plus" ölkələrinin iclasında iştirakına görə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev Bakının dünyada neftin vətəni olduğunu vurğulayaraq tədbirin paytaxtımızda keçirilməsinin rəmzi xarakter daşıdığını dedi. Dövlət başçısı Azərbaycan tərəfinin bu tədbirin Bakıda keçirilməsi ilə bağlı təklifinin şəxsən Məhəmməd Barkindo və təşkilatın üzv dövlətləri tərəfindən qəbul edilməsini yüksək qiymətləndirdi. Prezident İlham Əliyev "OPEC plus"un yeni bir format olduğunu nəzərə alaraq, bu formatda ilk tədbirlərdən birinin ölkəmizdə keçirilməsinin əhəmiyyətini qeyd etdi və bunu Azərbaycana olan dostluq və etimadın göstəricisi kimi dəyərləndirdi. Dövlət başçısı "OPEC plus" ölkələrinin iclasının uğurla keçəcəyinə, bunun da öz növbəsində neftin qiymətinin sabitləşdirilməsi işinə xidmət edəcəyinə və bu qiymətin neftin istehsalçıları, istehlakçıları, şirkətlər və ölkələr üçün məqbul olacağına əminliyini ifadə etdi.

OPEC-in baş katibi Məhəmməd Barkindo, ilk növbədə, dəvətə görə dövlət başçısına minnətdarlığını bildirdi. O, hələ 1846-cı ildə dünyada ilk dəfə sənaye üsulu ilə neftin Bakıda hasil olunduğunu vurğulayaraq, tədbir iştirakçılarının Azərbaycana gəlişini bir ziyarət kimi dəyərləndirdi. Məhəmməd Barkindo qeyd etdi ki, Prezident İlham Əliyev "OPEC plus" formatında iclasın keçirilməsi təşəbbüsü ilə çıxış edən ilk dövlət başçısıdır. O, Prezident İlham Əliyev tərəfindən bu təşəbbüsün üç il bundan əvvəl Davosda irəli sürüldüyünü məmnunluqla xatırladı. Azərbaycan Prezidentinin bu təşəbbüsünün artıq reallığa çevrildiyini qeyd edən Məhəmməd Barkindo bu işdə Prezident İlham Əliyevin baxışlarını və liderliyini yüksək qiymətləndirdi. O, ümumiyyətlə, "OPEC plus" formatında əməkdaşlığın başlandığı ilk gündən Azərbaycanın bu proseslərdə fəal iştirak etdiyini vurğuladı.

Xoş sözlərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev bir neçə il bundan əvvəl Davosda "OPEC plus" əməkdaşlıq formatı ilə bağlı təşəbbüsünü xatırlayaraq, həmin vaxtdan bugünə kimi həyata keçirilən əməkdaşlıqdan məmnunluğunu ifadə etdi.

Söhbət zamanı Azərbaycan ilə OPEC arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olundu, "Cənub qaz dəhlizi"nin müvəffəqiyyətlə reallaşmaqda olduğu bildirildi.

## Azərbaycanla Səudiyyə Ərəbistanı Krallığı arasında ikitərəfli münasibətlər yüksək səviyyədədir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 16-da Səudiyyə Ərəbistanı Krallığının energetika, sənaye və təbii sərvətlər naziri Xalid Əbdüləziz Əl Falihi qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı Bakıda "OPEC plus" ölkələrinin iclasında iştirak etdiyinə görə Xalid Əbdüləziz Əl Falihə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev Azərbaycanın neftin sənaye üsulu ilə istehsalının vətəni olduğunu vurğulayaraq, bu tədbirin Bakıda keçirilməsinin xüsusi məna daşıdığını qeyd etdi. Dövlət başçısı "OPEC plus" formatında əməkdaşlığın dünyada neftin qiymətinin balanslaşdırılmasında mühüm rol oynadığını vurğuladı.

Nazir Xalid Əbdüləziz Əl Falih, ilk növbədə, İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun salamlarını dövlət başçısına çatdırdı. O, Azərbaycanın "OPEC plus" formatında fəal iştirak etdiyini bildirərək ölkəmizdə tədbir iştirakçılarına göstərilən qonaqpərvərliyi yüksək qiymətləndirdi. Xalid Əbdüləziz Əl Falih Prezident İlham Əliyevin "OPEC plus" formatının yaradılmasında liderlik rolunu yüksək dəyərləndirərək bu formatda Azərbaycanın çox fəal iştirakçı olduğunu qeyd etdi. İkitərəfli münasibətlərə toxunan Xalid Əbdüləziz Əl Falih ölkəsinin Azərbaycanın ərazi bütövlüyünün və təcavüz nəticəsində pozulmuş suverenliyinin bərpası işinə tam sadiq olduğunu vurğuladı. O qeyd etdi ki, Azərbaycanın möhkəmlənməsi, iqtisadi inkişafı və iqtisadiyyatının şaxələndirilməsi istiqamətində gedən işlər Səudiyyə Ərəbistanında böyük maraqla izlənilir. Xalid Əbdüləziz Əl Falih bu həftə Səudiyyə Ərəbistanı Krallığından Azərbaycana gələn nümayəndə heyətlərinin Azərbaycan hökumətinin və biznes qurumlarının nümayəndələri ilə məhsuldar görüşlər keçirdiyini vurğuladı.

Xoş sözlərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun salamlarına görə təşəkkürünü bildirdi, onun da salamlarını Səudiyyə Ərəbistanının Kralına çatdırmağı xahiş etdi.

Ölkələrimiz arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu deyən Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın ədalətli mövqeyinə Səudiyyə Ərəbistanı Krallığının göstərdiyi davamlı dəstəyi yüksək qiymətləndirdi və bunu dostluq münasibətlərinin təzahürü kimi dəyərləndirdi. İki ölkə arasında siyasi sahədə əlaqələrin inkişafından məmnunluğunu ifadə edən Prezident İlham Əliyev Azərbaycanda və Səudiyyə Ərəbistanında hazırda iqtisadiyyatın şaxələndirilməsi üzrə böyük işlərin həyata keçirildiyini qeyd etdi və bunun iqtisadi əməkdaşlığımızın genişləndirilməsi üçün yaxşı imkanlar yaratdığını dedi. Dövlət başçısı Səudiyyə Ərəbistanından Azərbaycana gələn turistlərin sayının artdığını qeyd edərək, bunun ölkələrimizin və xalqlarımızın bir-birinə daha da yaxınlaşması işinə xidmət etdiyini vurğuladı. Xoş sözlərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev qeyd etdi ki, Səudiyyə Ərəbistanı Krallığından Azərbaycana gələn insanlar xalqımızın qonaqpərvərliyinin və dostluq münasibətinin şahidi olurlar.

Görüşdə Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən enerji sahəsində uğurla inkişaf etdiyi bildirildi, Səudiyyə Ərəbistanı Krallığının "Saudi Aramco" şirkətinin Bakıda ofisinin açılması yüksək qiymətləndirildi, əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

## İrlandiyanın Prezidenti zati-aliləri cənab Maykl Higginsə

Hörmətli cənab Prezident!

İrlandiyanın milli bayramı - Müqəddəs Patrik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İrlandiya xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 mart 2019-cu il*

## Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Məhkum olunmuş bir sıra şəxslərin, onların ailə üzvlərinin, İnsan hüquqları üzrə müvəkkilin, insan hüquqlarının müdafiəsi təşkilatlarının Azərbaycan Respublikası Prezidentinə ünvanlanmış əfv haqqında müraciətlərinə baxaraq, məhkumların şəxsiyyətini, səhhətini, ailə vəziyyətini, cəza çəkdikləri müddətdə davranışlarını nəzərə alaraq, humanizm prinsiplərinə əsaslanaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş aşağıdakı şəxslər cəzanın çəkilməmiş hissəsindən azad edilsinlər:

Ardı 8-9-10-cu səh.

## V.Ə.Hüseynova III dərəcəli dövlət miqrasiya xidməti müşaviri ali xüsusi rütbəsinin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Əfqan oğlu Hüseynova III dərəcəli dövlət miqrasiya xidməti müşaviri ali xüsusi rütbəsi verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 mart 2019-cu il*

## Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin əməkdaşlarının "Miqrasiya orqanlarında qulluqda fərqlənməyə görə" medalı ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Miqrasiya orqanlarında qulluqda fərqləndiklərinə və səmərəli fəaliyyət göstərdiklərinə görə Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin aşağıdakı əməkdaşları "Miqrasiya orqanlarında qulluqda fərqlənməyə görə" medalı ilə təltif edilsinlər:

Ağayev İslam Məsum oğlu
Bağırov Babək Sədrəddin oğlu
Ələsgərli Nurlan Azər oğlu
Əliyev Rüfət Tofiq oğlu
Əliyev Zamir Ramiz oğlu
Xıdırov Orxan İsmayıl oğlu
Məmmədov Elçin Etibar oğlu
Məmmədova Vəfa Yaqub qızı
Mürsəliyev Elmar Mürsəli oğlu
Sadiqov Samir Hüseyn oğlu
Zeynallı Malik Bayramqulu oğlu

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 mart 2019-cu il*

# VII Qlobal Bakı Forumu

## Forum başa çatıb

# Forumun sonuncu günü keçirilən panel iclaslar da maraqlı müzakirələrlə yadda qalıb

## "Gənc liderlər dünyanı daha yaxşı necə qura bilərlər?"

VII Qlobal Bakı Forumu sonuncu iş gününü də panel iclaslarla davam etdirib.

Forum çərçivəsində "Gənc liderlər dünyanı daha yaxşı necə qura bilərlər?" mövzusunda panel iclas keçirilib.

Panelə moderatorluq edən Ukraynanın sabiq birinci xanımı **Katerina Yuşenko** bildirib ki, bu gün gənclərin lider kimi yetişmələri üçün kifayət qədər münbit şərait var. Bunun üçün xüsusi təqaüd proqramları mövcuddur. Bu proqramlar vasitəsilə gənclər siyasi və texnoloji biliklərini artırırlar.

Corctaun Universitetinin tələbəsi **Salima Şita** vurğulayıb ki, bu gün dünyada ekoloji problem mövcuddur. Bu problem dünyada bir çox fəsadlara gətirib çıxarır. Bu problemin aradan qaldırılması üçün ortaq layihə üzərində çalışmalıyıq. Ekoloji problemin həlli dünyada yoxsulluğun yayılmasına da imkan verməz.

Dünyadakı əsas problemlərdən birinin də yoxsulluq olduğunu deyən qırğızıstanlı gənc **Altınay Alntınmayeva** bildirib ki, erkən nikah problemi də narahatlıq doğuran məsələdir. O deyib ki, qızların təhsil almaq istəyi olsa da, onlar ailə qurmağa məcbur edilirlər. Bunun nəticəsində də cəmiyyətdə cinsi bərabərlik pozulur.

İtaliyanı təmsil edən gənc **Curiya Sardi** vurğulayıb ki, dünyada uşaq hüquqlarının pozulması da geniş yayılıb. Valideynlərin sosial vəziyyətinin aşağı olması səbəbindən uşaq əməyindən istifadə olunur. Bu da uşaqların gələcəyi üçün risk yaradır.



ADA Universitetinin tələbəsi **Sevinc Novruzova** dünyanı narahat edən iqlim dəyişikliyinin fəsadlarından danışıb. Bildirib ki, bu, ekoloji problemlə yanaşı, həm də sosial mühitin normal olmaması ilə bağlıdır. Dünya birliyi siyasi problemlərlə yanaşı, bu məsələlərə də xüsusi diqqət ayırmalıdır. Çünki ekoloji problemlər kənd təsərrüfatının və qida sənayesinin inkişafına mane olur.

Şimali Makedoniya Respublikasını təmsil edən gənc **İlya Cvetanovski** bildirib ki, səylərimizi birləşdirsək, əməkdaşlıq şəraitində çalışsaq problemləri həll edə, dünyamızı yaxşılaşdıra bilərik. Gənclərin birgə çalışması nəticəsində mükəmməl bir dünyaya sahib ola bilərik. Bunun üçün ekoloji və sosial layihələr üzərində işləməliyik.

Panelin ikinci hissəsində çıxış edən tacikistanlı **Kamilla Soliyeva** bildirib ki, dünyada gənclər arasında dialoqun gücləndirilməsi üçün bu sahədə diplomatiya inkişaf etdirilməlidir. Məhz bu dialoq nəticəsində problemlər birgə araşdırıla bilər.

Dünyanı narahat edən qadın zorakılığının, gender bərabərsizliyinin fəsadlarından bəhs edən azərbaycanlı gənc **Tərlan Abbasova** bunlarla qlobal səviyyədə mübarizə aparmağın zəruriliyini qeyd edib. O, XX əsrin əvvəllərində müsəlman Şərqində ilk dəfə Azərbaycanda qadınlara seçib-seçilmək hüququnun verilməsindən danışıb.

Ukraynanı təmsil edən **Bəkir Abiyev** dünyada milli azlıqlarla bağlı mövcud olan problemlərdən, xüsusilə də onların hüquqlarının pozulmasından söhbət açıb.

## "İnformasiya dolğunluğu və dezinformasiya riski"

Forum çərçivəsində keçirilən panel iclaslardan biri də "İnformasiya dolğunluğu və dezinformasiya riski" mövzusuna həsr edilib.

AZƏRTAC xəbər verir ki, panelə moderatorluq edən Belçikanın sabiq Baş naziri **Yves Leterme** hazırda dünyada dörd milyard insanın internetdən istifadə etdiyini deyib. O bildirib ki, internetin təsir gücü olduqca genişdir. Hökumətlər internetin mənfi təsirlərini azaltmaq üçün müəyyən təşəbbüslər göstərirlər. Bu paneldə internetin istifadəsinin müsbət və mənfi tərəfləri barədə danışılacaq.

Federal Əlaqələr Komissiyasının keçmiş komissarı **Susan Ness** vurğulayıb ki, sosial şəbəkələrdə məlumatların cavabdehliyinin olmaması saxta xəbərlərin yayılmasına şərait yaradır. Bəzi hallarda isə həqiqəti gizlətmək üçün dezinformasiyalar yayılır. İnsanları cəlb etmək üçün xüsusi başlıqlar seçilir. O, bu cür problemlərin qarşısının alınması üçün rəqəmsal savadlılığın artırılmasının əhəmiyyətini qeyd edib.






İnterneti nüvə partlayışına bənzədən Moldovanın sabiq Prezidenti **Petru Luçinski** hazırda doğru məlumatların seçilməsinin çox çətin olduğunu deyib. Diqqətə çatdırıb ki, dezinformasiya kimi problemlərə mütəmadi olaraq rast gəlinir. Dünya o qədər dəyişib ki, indiki dövrdə media obyektiv olmalı, həqiqəti yaymalıdır.

Pakistanın keçmiş Baş naziri **Şaukat Aziz** deyib ki, hazırda rəqəmsal dövrdə yaşayırıq. Qəzetlər artıq öz əhəmiyyətini itirir. İyirmi-iyirmi beş il əvvəlki dövrlə müqayisədə xəbərin konsepsiyası da dəyişib və biz buna uyğunlaşmalıyıq. Dərk etməliyik ki, rəqəmsal dünyada biz özümüz də xəbərləri seçə bilərik. Doğru xəbəri seçmək üçün bəzi vasitələrdən istifadə etməliyik, ən əsası isə həqiqəti yalandan ayırmalıyıq. Çünki hazırda media açıq boru kimidir.

İsrailin keçmiş Prezidenti xanım **Dalia İtzik** sosial medianın minlərlə insanı özündə birləşdirdiyini söyləyib. Qeyd edib ki, sosial media insanların öz evində həm redaktor, həm də jurnalist kimi fəaliyyətinə şərait yaradır. Bu da yanlış informasiyanın yayılmasına gətirib çıxarır. Feyk xəbərlərin qarşısının alınması üçün hətta məktəblərdə şagirdlərə doğru informasiyanı yanlışdan ayırmağı öyrətməliyik.

Forumda iştirakından məmnun olduğunu deyən Çex Respublikasının keçmiş Baş naziri **Jan Fişer** burada çox vacib məsələlər ətrafında müzakirələr aparıldığını söyləyib. O bildirib ki, informasiya cəmiyyətində hər kəs öz istəyinə uyğun məlumat əldə edə bilər. Hansısa bir cəmiyyətdə demokratiyanın səviyyəsi ölçülərkən, ilk növbədə, buradakı mediaya müraciət etmək lazımdır.

Avstriyanın sabiq Kansleri **Alfred Güsenbauer** feyk xəbərlərin insanların həyatına təsirindən danışıb. Qeyd edib ki, medianın tənzimlənməsi demokratik şəraitdə həyata keçirilməlidir. Bunun üçün elə bir cəmiyyət lazımdır ki, orada açıq fikir mübadiləsi aparıla bilsin.

İclasda müzakirələr zamanı bildirilib ki, dezinformasiya müasir dünyanı narahat edən vacib məsələlərdəndir. Onun qarşısının alınması üçün həll yolları axtarılır. Bunun daha səmərəli olması üçün hökumət və qeyri-hökumət təşkilatları birlikdə işləməli, bir-birinin təcrübəsindən bəhrələnməlidir.

## "Cənubi Qafqazda regional təhlükəsizlik problemləri"

"İnformasiya dolğunluğu və dezinformasiya riski" adlı panel iclasdan sonra forum çərçivəsində "Cənubi Qafqazda regional təhlükəsizlik problemləri" mövzusunda müzakirələr aparılıb.

Müzakirələrdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri **Hikmət Hacıyev**, Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki keçmiş səfiri R**obert Sekuta**, Avropa Parlamentinin üzvü **Sayyad Kərim** və başqaları iştirak ediblər.

Müzakirələr zamanı Cənubi Qafqazda regional əməkdaşlığa, sülhə, təhlükəsizliyə təhdid yaradan məsələlər, bu xüsusda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi diqqət mərkəzində olub. Azərbaycan Respublikasının münaqişənin həlli ilə bağlı mövqeyi, həmçinin VII Qlobal Bakı Forumunun açılışında Prezident İlham Əliyevin nitqində qeyd olunan məsələlər əsnasında ölkəmizin regional inkişafa yönəlik siyasəti və bundan irəli gələn vəzifələrə dair müzakirələr aparılıb.

Bundan başqa, Cənubi Qafqaz regionunun Avropa İttifaqı ilə, ABŞ, Çin kimi ölkələrlə və digər regionlarla əməkdaşlığı kimi mövzular ətrafında fikir mübadiləsi aparılıb, regional inkişafla əlaqədar Azərbaycanın mövqeyi diqqətə çatdırılıb. Vurğulanıb ki, Azərbaycan çox uğurlu regional əməkdaşlıq modelləri qurub. Bu, Azərbaycan Respublikasının milli maraqlarına xidmət etməklə bərabər, ölkəmizin tərəfdaşlarının da maraqlarına xidmət edir. Bu kontekstdə nəqliyyat dəhlizləri, enerji layihələri və bunun əsasında qurulmuş regional əməkdaşlıq modelləri qeyd edilib. Bildirilib ki, bütün bu proseslərdən kənarda qalan isə Ermənistan Respublikasıdır. Əgər Ermənistan regional proseslərdə iştirak etmək, iqtisadi islahatlar proqramını həyata keçirmək istəyirsə, öz qoşunlarını işğal olunmuş Azərbaycan ərazilərindən çıxarmalı və qonşu dövlətlərlə sivil şəkildə davranaraq mehriban qonşuluq siyasəti həyata keçirməlidir.



## "Müttəfiqlərin gələcəyi və onların arxasındakı motivasiya"

VII Qlobal Bakı Forumunun sonuncu - onuncu panel iclası "Müttəfiqlərin gələcəyi və onların arxasındakı motivasiya" mövzusuna həsr olunub.

Panel iclasın moderatoru, Latviyanın sabiq Prezidenti Valdis Zatlers yaradılan alyansların əhəmiyyətindən, onların səmərəliliyindən danışıb.

Gürcüstanın sabiq Prezidenti **Giorgi Marqvelaşvili** ölkəsinin artıq öz seçimini etdiyini, Avropa İttifaqını və NATO-nu seçdiyini bildirib. O qeyd edib ki, Gürcüstan digər alyanslardan daha davamlı olan və uzun müddət mövcudluğunu qoruyub saxlayan NATO ilə tərəfdaşlıqdan faydalanmaq niyyətindədir. Sabiq Prezident Gürcüstanın tranzit ölkə kimi əhəmiyyətini də diqqətə çatdırıb.

Sinxua Universitetinin Şvarsman Kollecinin dekanı **David Pan** Şanxay Əməkdaşlıq Təşkilatının fəaliyyətindən bəhs edərək deyib ki, bu qurumun əsas məqsədi ortaq






əməkdaşlıq qurmaqdır. O, təşkilatın bir çox problemləri həll etdiyini, iqtisadi inkişafa, yeni texnologiyaların tətbiqinin genişləndirilməsinə töhfə verdiyini diqqətə çatdırıb.

ISESCO-nun baş direktoru **Əbdüləziz bin Osman əl-Tuveycri** foruma dəvətə və bu tədbirin yüksək səviyyədə təşkilinə görə Azərbaycan dövlətinə, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə təşəkkürünü ifadə edib. O, ekstremizmə, islamofobiyaya qarşı birgə mübarizədə alyansların əhəmiyyətini vurğulayıb. Təhsilin radikalizmə qarşı ən yaxşı vasitələrdən biri olduğunu vurğulayan baş direktor sülh şəraitində yaşamaq üçün insan amilinin çox böyük rol oynadığını bildirib.

BMT-nin Cenevrə Ofisinin baş direktorunun katibliyinin rəhbəri **Devid Çikvaidze** deyib ki, alyanslar dünyada sülhün və əməkdaşlığın göstəricisidir, münaqişələrin qarşısının alınması üçün vacib bir mexanizmdir. Bugünkü çoxqütblü dünyada alyanslara çox böyük ehtiyac var.

İtaliya Prezidentinin sabiq müşaviri **Antonio Zanardi Landi** qeyd edib ki, ittifaqlar iki məqsədə xidmət edir: müharibə etmək və müharibənin qarşısını almaq. O, hərbi ittifaqların böhran dövrü yaşadığını qeyd edərək deyib ki, bu alyanslar artıq öz funksiyalarını itirmək təhlükəsi ilə üzləşiblər. Digər kiçik təşkilatlar isə fəaliyyətlərini dayandırıblar. İndi isə yeni müvəqqəti ittifaqlar formalaşmaqdadır.

Belçikanın sabiq dövlət naziri **Herman De Kroo** Qlobal Bakı Forumunda iştirak etdiyinə görə məmnun olduğunu bildirib. O, çıxışında əsasən miqrasiya problemlərindən bəhs edib, bu problemin həlli yollarının tapılmasının vacibliyini vurğulayıb. Bildirib ki, qeyri-qanuni miqrasiyanın qarşısını almaq mümkündür, bunun üçün, sadəcə, qarşılıqlı səylərə və fəaliyyətə ehtiyac var.

Ukraynanın sabiq Prezidenti **Viktor Yuşenko** "Soyuq müharibə"dən sonra Avropanın hissələrə bölündüyünü bildirib. Vurğulayıb ki, sonradan ölkələr arasında əməkdaşlıq qurmaq üçün bir sıra sənədlər imzalanıb. Bir sıra münaqişələrin, o cümlədən Dağlıq Qarabağ münaqişəsinin hələ də davam etdiyini deyən sabiq Prezident bu problemlərin həlli üçün lazımi mexanizmin tapılmadığını diqqətə çatdırıb.

* * *

Bununla da "Dünyanın yeni xarici siyasəti" mövzusunda keçirilən VII Qlobal Bakı Forumu işini başa çatdırıb.

# 102 qəsəbə, 58 min 203 mənzil

## Məcburi köçkünlərin sosial problemləri effektiv həllini tapır

Əvvəli 1-ci səh.

### Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr

Qaçqınların və məcburi köçkünlərin sağlamlıqlarının təmini, sosial durumlarının yaxşılaşdırılması, məşğulluqlarının artırılması və digər məsələlərlə bağlı da bir sıra mühüm işlər görülüb. Bu işlərə Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr də töhfə verir. 2017-2018-ci illərdə Heydər Əliyev Fondunun təşəbbüsü ilə 1481 mənzil məcburi köçkünlərin istifadəsinə verilib. Hazırda Heydər Əliyev Fondunun xətti ilə Qaradağ rayonu ərazisindəki "Qobu Park" yaşayış kompleksinin yanında 2-ci yaşayış kompleksində 1300, eləcə də dövlət proqramının icrası üzrə Sabunçu rayonunun Kürdəxanı qəsəbəsində 810, Pirallahı rayonunda 306, Şirvan şəhərində 685, Beyləqan rayonunda 146 ailəlik qəsəbə və yaşayış komplekslərinin tikintisi intensiv surətdə davam etdirilir.



Ümumiyyətlə, Azərbaycan dövlətinin qaçqınların və məcburi köçkünlərin sosial məsələlərinin həlli istiqamətində gördüyü tədbirlər dünyada çox nadir təcrübədir. Bu təcrübə bütün beynəlxalq təşkilatlar tərəfindən çox yüksək qiymətləndirilir və ondan istifadə olunur. Eyni zamanda, qaçqın və məcburi köçkünlərin müvəqqəti yaşayış yerləri və çadırlardan müasir tələblər səviyyəsində inşa edilən qəsəbələrə köçürülməsi dövlətin bu insanlara göstərdiyi diqqətin təzahürüdür.

Xatırladaq ki, bu kateqoriyadan olan insanların maddi rifahının yaxşılaşdırılması üçün dövlət proqramları qəbul edilib, sosial müavinətlərin artırılması istiqamətində mühüm tədbirlər görülüb. Qarşıdakı dövr ərzində isə bu qəbildən olan insanların mənzil-məişət problemlərinin həlli istiqamətində işlər daha geniş miqyasda davam etdiriləcək. Müvafiq dövlət proqramına uyğun olaraq, artıq Kürdəmir rayonunda 563, Ucar rayonunda 250, Göygöl rayonunda 80 və Ağcabədi rayonunun Taxtakörpü qəsəbəsində 645 məcburi köçkün ailəsi üçün nəzərdə tutulmuş fərdi evlərdən və çoxmərtəbəli binalardan ibarət qəsəbə və yaşayış komplekslərinin layihə-smeta sənədləri hazırlanıb.

Bu isə o deməkdir ki, yaxın vaxtlarda mənzil-məişət problemi həll edilən məcburi köçkünlərin sayı daha da artacaq. Bütün bunlar bir daha sözügedən kateqoriyadan olan insanlara yüksək diqqət və qayğının real təzahürləridir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Azərbaycan Prezidentinin təşəbbüsü ilə "OPEC plus" ölkələri ilk dəfə Bakıda toplaşır

Martın 18-də Bakıda keçiriləcək OPEC və qeyri-OPEC ölkələri Nazirlərinin Birgə Monitorinq Komitəsinin (JMMC) 13-cü iclasında 14 neft ölkəsi və OPEC Katibliyi yüksək səviyyədə təmsil olunacaq.

Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, bu tədbir Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin OPEC və qeyri-OPEC ölkələrinin tədbirlərinin Bakıda keçirilməsi təklifi ilə baş tutur. Bu təklifin qəbulu neft bazarının tənzimlənməsi məqsədilə "OPEC plus" formatının yaradılması təşəbbüsü ilə ilk dəfə çıxış edən Azərbaycan Prezidentinin enerji siyasətinə verilən yüksək qiymətin göstəricisidir. Belə ki, hələ 2016-cı ilin yanvarında Azərbaycan Prezidenti qiymət sabitliyinə nail olmaq üçün Davos Forumunda belə bir əməkdaşlıq təşəbbüsünü irəli sürərək bildirib ki, OPEC üzvləri və OPEC üzvü olmayan böyük istehsalçılar arasında istehsalın azaldılması istiqamətində daha yaxşı koordinasiya olsa, nəticə əldə edilə bilər.

Neft bazarında balansın qorunması və qiymət sabitliyinə nail olmaq məqsədilə Azərbaycan "OPEC plus" əməkdaşlığı çərçivəsində fəal rolunu bu gün də davam etdirərək bu formatda keçirilən tədbirlərə evsahibliyi edir və neft bazarının tənzimlənmə prosesinə töhfə verir.

Qeyd edək ki, Nazirlərin Birgə Monitorinq Komitəsinin 13-cü (JMMC) iclasında OPEC-in baş katibi Məhəmməd Barkindo ilə yanaşı, OPEC prezidenti, Venesuelanın neft naziri və Dövlət Neft Şirkətinin prezidenti Manuel Kevedo Fernandes, JMMC-nin sədri, Səudiyyə Ərəbistanının energetika, sənaye və təbii sərvətlər naziri Xalid Əbdüləziz Əl Falih iştirak edəcəklər. Tədbirə, həmçinin OPEC üzvləri - Əlcəzair, BƏƏ, Küveyt, İraq, Liviya, Nigeriya, Konqo, qeyri-OPEC ölkələrindən isə Rusiya, Qazaxıstan, Bəhreyn və Bruneyin yüksəksəviyyəli nümayəndə heyəti qatılacaq.

İclasda Azərbaycanın energetika naziri Pərviz Şahbazov, Birgə Monitorinq Komitəsinin sədri Xalid Əbdüləziz Əl Falihin, OPEC prezidenti Manuel Kevedo Fernandesin və baş katib Məhəmməd Barkindonun salamlama nitqləri nəzərdə tutulub.

Sonra OPEC-in bazarın inkişaf tempinin təhlili əsasında hazırlanmış təqdimatı və Müştərək Texniki Komissiyanın fevral ayı üzrə hasilat göstəricilərindən bəhs edən hesabatı dinləniləcək.

İclasın yekunlarına dair mətbuat konfransı keçiriləcək. Tədbiri işıqlandırmaq üçün 20-dən çox xarici media orqanı və yerli KİV-in 180 nəfərə yaxın nümayəndəsi qeydiyyatdan keçib.

Qeyd edək ki, Nazirlərin Birgə Monitorinq Komitəsinin iclasından bir gün əvvəl - martın 17-də Bakıda Müştərək Texniki Komissiyanın (JTC) 27-ci iclası da keçiriləcək.

# ADA Universitetinin tələbələri Sabit Rəhman və Emin Sabitoğlunu yad ediblər



ADA Universitetində "İrs" tələbə klubunun təşəbbüsü ilə Sabit Rəhman və Emin Sabitoğlunun yaradıcılığına həsr olunmuş tədbir keçirilib. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) tələbələrinin qatıldığı proqramda hər iki görkəmli mədəniyyət xadiminin irsi xatırlanıb.

ADA Universitetindən AZƏRTAC-a bildirilib ki, tələbələrin musiqili çıxışları ilə yanaşı, tədbirdə filologiya üzrə fəlsəfə doktoru, professor Şirindil Alışanlı böyük yazıçı və dramaturq Sabit Rəhmanın yaradıcılığı barədə məlumat verib.

Daha sonra Sabit Rəhman və Emin Sabitoğlunun ssenarist və bəstəkar kimi üzərində işlədikləri filmlər barədə müzakirələr aparılıb. Tələbələrin Azərbaycan Dövlət Kino-Foto Sənədləri Arxivindən tapdıqları maraqlı materiallar, iki görkəmli simanın birgə ərsəyə gətirdiyi "Hicran" tamaşasından parçalar nümayiş etdirilib.



Tədbirdə çıxış edən xalq şairi Nəriman Həsənzadə Sabit Rəhman və Emin Sabitoğlu barədə xatirələrini bölüşüb.

ADMİU-nun rektoru, Emin Sabitoğlunun qızı Ceyran Mahmudova gözəl yaradıcılıq axşamına görə təşəkkürünü bildirib. O etiraf edib ki, Azərbaycan mədəniyyətini təbliğ edən və eyni zamanda, onun ailə üzvlərinin irsini işıqlandıran tədbir onda kövrək hislər və yüksək təəssürat yaradıb.

Sonda çıxış edən ADA Universitetinin rektoru Hafiz Paşayev vurğulayıb ki, müasir zamanda gənclərin Azərbaycanın ədəbiyyatı və incəsənətinin görkəmli şəxsləri barədə məlumatlandırılması çox vacibdir və "İrs" tələbə klubunun belə bir təşəbbüsü təqdirəlayiqdir. O, tələbələri həmyaşıdları arasında bu səpkidə maarifləndirmə fəaliyyətini davam etdirməyə çağırıb.

### 2015-ci il martın 17-də TANAP-ın təməli qoyulmuşdur

# Azərbaycanın və Türkiyənin birgə möhtəşəm layihəsi



Azərbaycanın və Türkiyənin birgə səyi ilə çəkilən Trans-anadolu Qaz Boru Kəmərinin (TANAP) tarixi qısa olsa da, bir sıra mühüm hadisələrlə zəngindir. Bunlardan biri 2015-ci il martın 17-də Türkiyənin Qars vilayətinin Selim rayonunda kəmərin təməlinin qoyulmasıdır. Həmin mərasimdə Azərbaycanın, Türkiyənin və Gürcüstanın prezidentləri iştirak etmişdilər. Bu da təsadüfi deyil. Çünki 3500 kilometr məsafə qət edən "Cənub qaz dəhlizi" Avropaya bu üç ölkənin ərazisindən keçərək uzanır.

TANAP-ın təməlinin qoyulması uzunmüddətli danışıqların nəticəsi və bu danışıqların real işlərə çevrilməsinin parlaq təzahürü idi. Belə ki, layihə təməlqoyma gününədək müəyyən yol keçmişdi. 2012-ci ilin iyun ayında Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyənin o vaxt Baş naziri, indi Prezidenti olan Rəcəb Tayyib Ərdoğan İstanbulda TANAP üzrə hökumətlərarası saziş imzalamışdılar. Həmin vaxtdan da layihənin həyata keçirilməsi istiqamətində genişmiqyaslı işlərə start verilmişdi. 2014-cü ilin ortalarınadək layihələndirmə işləri, araşdırmalar tamamlanmışdı. Sonra mühəndis-layihələndirmə, təchizat-tədarük, tikinti-idarəçilik müqavilələri imzalanmış və kəmərin tikintisinin bütün detalları nəzərdən keçirilmişdi. 2014-2015-ci illər TANAP üçün çox məsuliyyətli bir fəaliyyət dövrü olmuşdu.

TANAP "Cənub qaz dəhlizi"nin ən böyük hissəsidir. Kəmər Türkiyənin ərazisində 20-dən çox vilayətdən, o cümlədən Ərdəhan, Qars, Ərzurum, Gümüşhanə, Ərzincandan keçərək 1900 kilometr məsafə qət edir.

TANAP Türkiyənin şərq hüdudundan başlanıb qərb hüdudunda sona çatır. Belə ki, Gürcüstan-Türkiyə sərhədində "Şahdəniz" qazını Azərbaycanın və Gürcüstanın ərazisi ilə daşıyan Cənubi Qafqaz Boru Kəmərinə (CQBK) bağlanır. Boru xəttinin o biri ucu isə Yunanıstan-Türkiyə sərhədinə çatır və burada yerləşən Kipoi məntəqəsində TAP-la (Trans-adriatik Qaz Boru Kəməri) qovuşur. Bütün bunlara görə TANAP-ı "Cənub qaz dəhizi"nin birləşdirici halqası da adlandırırlar.

Beləliklə, TANAP təkcə iki ölkə üçün, region üçün deyil, həm də bütün Avrasiya məkanı üçün önəm daşıyan layihədir. Məlum olduğu kimi, "Cənub qaz dəhlizi" bir sıra ölkələrin, layihənin ayrı-ayrı seqmentlərində tərəfdaşlıq edən çoxsaylı şirkətlərin sıx əməkdaşlığı nəticəsində gerçəkləşir. Dəhlizlə nəql olunacaq təbii yanacağın Avropanın iri şirkətləri tərəfindən alınması nəzərdə tutulub. TANAP məhz belə bir önəmli dəhlizin mühüm hissəsidir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxışlarının birində TANAP-ı "Cənub qaz dəhlizi"nin onurğa sütunu adlandırmış və onun vaxtında istifadəyə verilməsinin vacib olduğunu vurğulamışdı. Artıq bu, reallığa çevrilib.

2018-ci il iyunun 12-də Türkiyədə, Əskişəhərdə TANAP-ın istifadəyə verilməsi münasibətilə təntənəli mərasim keçirildi. Azərbaycan Prezidenti İlham Əliyev həmin tədbirdə layihənin dəyərini bir daha vurğuladı: "TANAP-ın istifadəyə verilməsi Türkiyə-Azərbaycan qardaşlığının növbəti təzahürüdür. TANAP tarixi layihədir. Bu gün biz XXI əsrin enerji tarixini birlikdə yazırıq. Bu tarix işbirliyi tarixidir, bu tarix sabitlik tarixidir. Enerji layihələrimiz bölgəmizə sabitlik gətirir. Bu layihələrdə iştirak edən bütün ölkələr, bütün şirkətlər fayda görür, xalqlar fayda görür".

Xatırladaq ki, "Cənub qaz dəhlizi"nin ehtiyat mənbəyi Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz" yatağıdır. Bu yatağın qaz ehtiyatları 1,2 trilyon kubmetr təşkil edir. "Şahdəniz-1"dən çıxarılan qaz 12 ildən çoxdur Gürcüstan və Türkiyəyə də nəql olunur. Keçən ilin yayından isə "Şahdəniz-2" də hasilata başlayıb.

"Şahdəniz-2" çərçivəsində ildə 16 milyard kubmetr qazın əldə olunacağı gözlənilir ki, bunun 6 milyard kubmetri Türkiyəyə, 10 milyard kubmetri TANAP-ın vasitəsilə TAP-a ötürülərək Avropaya ixrac ediləcək. Daha sonra nəql olunan qazın həcmi artacaq, 2023-cü ildə 23 milyard kubmetrə, 2026-cı ildə 31 milyard kubmetrə çatacaq.

Türkiyəyə ilk kommersiya məqsədli daşımalar plana uyğun şəkildə keçən il iyunun 30-dan başlanıb. Hazırda "Şahdəniz Bravo" platformasından qazın Səngəçal terminalına nəqli, oradan da CQBK ilə TANAP-a ötürülməsi ahəngdar şəkildə davam edir.

Bu il fevralın 20-də "Cənub qaz dəhlizi" Məşvərət Şurasının Bakıda keçirilən beşinci toplantısında TANAP-ın uğurla fəaliyyət göstərdiyi bir daha qeyd edildi. İndiyədək bu kəmərlə Türkiyəyə 1 milyard kubmetrdən çox Azərbaycan qazı ixrac edilib.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Heydər Əliyev Fondu aztəminatlı ailələrə ənənəvi Novruz sovqatları paylayır





Qarşıdan gələn Novruz bayramı münasibətilə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə aztəminatlı ailələrə ənənəvi olaraq sovqatlar paylanılır.

Fonddan AZƏRTAC-a verilən məlumata görə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birlikdə həyata keçirilən layihə respublika üzrə ünvanlı dövlət sosial yardımı alan bütün ailələri əhatə edir.

Heydər Əliyev Fondunun rayonlara ezam olunan əməkdaşları bölgələr üzrə sosial yardım alan ailələrə müxtəlif ərzaq məhsullarından ibarət sovqatlar çatdıraraq onları qarşıdan gələn Novruz bayramı münasibətilə təbrik edirlər.



Qeyd edək ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə mütəmadi olaraq müxtəlif bayramlarda aztəminatlı ailələrə sovqatlar paylanılır, bayram süfrələri açılır, sosial yardıma ehtiyacı olan şəxslərlə bağlı müxtəlif layihələr reallaşdırılır. Bununla Heydər Əliyev Fondu dövlətin aztəminatlı ailələr üzrə həyata keçirdiyi sosial siyasətə öz töhfəsini verməklə yanaşı, həm də qayğıya ehtiyacı olan şəxslərə dəstək göstərir.

# Horadiz qəsəbəsində əsgər və zabitlər üçün Novruz şənliyi təşkil edilib





Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) hərbi hissələrin şəxsi heyətinə hamilik yardımının həyata keçirilməsi ilə bağlı qərarına uyğun olaraq Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı (ATİAHİ) Respublika Komitəsi tərəfindən Dövlət Sərhəd Xidmətinin (DSX) Füzuli rayonunun Horadiz qəsəbəsindəki "N" saylı hərbi hissəsinin əsgər və zabitləri üçün Novruz bayramı münasibətilə mədəni kütləvi tədbir keçirilib. AZƏRTAC xəbər verir ki, hərbi hissədə keçirilmiş görüşdə əvvəlcə Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman vətən oğullarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib və Dövlət himni səsləndirilib.

Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin sədr müavini Mirzə Cəfərzadə çıxışına ümummilli lider Heydər Əliyevin "Azərbaycan Ordusu dövlət müstəqilliyimizin dayağıdır" sözləri ilə başlayıb. Bildirilib ki, ulu öndərin hakimiyyətə qayıdışından sonra ordu quruculuğunda böyük irəliləyiş, inkişaf baş verib. Hazırda Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən ordumuzun güclənməsi istiqamətində də uğurlu siyasət həyata keçirilir.

M.Cəfərzadə vurğulayıb ki, AHİK-in və ATİAHİ Respublika Komitəsinin sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyevin təşəbbüsü ilə hər il əlamətdar günlərdə hərbi hissələrdə əsgərlərlə görüşlərin təşkil edilməsi gənc nəslin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunmasına böyük təkan verəcək. Bildirilib ki, əsgərlərə bayram sovqatı ilə bərabər müxtəlif ləvazimatlar da gətirilib.

Çıxışlarda qeyd edilib ki, bu gün ölkəmizin hər yerində olduğu kimi, orduda da Novruz bayramı böyük təntənə ilə qeyd edilir. Azərbaycan Ordusu lazımi döyüş hazırlığına malikdir və qarşısına qoyulan hər bir tapşırığı yerinə yetirməyə qadirdir.

Tədbirdə çıxış edən sərhədçilər Prezident İlham Əliyevin Ali Baş Komandanlığı ilə Azərbaycan Respublikasının dövlət sərhədlərini qorumaqdan şərəf və qürur duyduqlarını bildiriblər. Onlar ölkəmizin ərazi bütövlüyünün bərpa olunacağına, işğal altındakı torpaqlarımızda Azərbaycanın suveren hüquqlarının təmin və həmin ərazilərdə dövlət sərhədlərinin mühafizəsinin təşkil ediləcəyinə əminlik ifadə ediblər.

Tədbir Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Unversitetinin həmkarlar ittifaqı təşkilatlarının özfəaliyyət kollektivlərinin maraqlı konsert proqramı ilə davam etdirilib.

Həmçinin komitənin əməkdaşları Cəbrayıl rayonunun şəhid Novruz Aslanov adına Cocuq Mərcanlı kənd tam orta məktəbində olub, məktəbin müəllim-şagird heyəti ilə görüşüblər. Şagirdlərə bayram hədiyyələri və dərs ləvazimatları təqdim edilib.

# MADE IN AZERBAIJAN

## “Azərkosmos”dan bir ayda 1,1 milyon dollarlıq qazanc




**Bu ilin 1 ayı ərzində “Azərkosmos” ASC tərəfindən dünyanın 15 ölkəsinə peyk telekommunikasiya xidmətləri ixrac edilib. Bu barədə “İxrac İcmalı”nın fevral sayında məlumat verilib.**

Məlumatda qeyd edilir ki, cari ilin ilk ayında “Azərkosmos” ASC peyk telekommunikasiya xidmətlərinin (Azerspace-1) ixracından 1,1 milyon dollar məbləğində gəlir əldə edib. 2018-ci ilin yanvar ayı ilə müqayisədə “Azərkosmos” ASC-nin xidmət ixracı 2,6 dəfə artıb.

“Azərkosmos” ASC-nin 2018-ci ilin yanvar ayında xidmət ixracı həyata keçirdiyi əsas ölkələr Fransa, BƏƏ, Nigeriya, Almaniya və Gürcüstandır.

## 4 milyard dollardan çox vəsait



**İndiyədək Azərbaycanda həyata keçirilən layihələrə Dünya Bankından 4 milyard dollardan çox vəsait cəlb olunub.**

Bu barədə iqtisadiyyat nazirinin müavini Sevinc Həsənova martın 6-da İqtisadiyyatın şaxələndirilməsi - özəl sektorun rolu üzrə yüksəksəviyyəli Forumda deyib.

Nazir müavini bildirib ki, Azərbaycanın əməkdaşlıq etdiyi beynəlxalq təşkilatlar sırasında Dünya Bankının xüsusi yeri var. 1990-cı ildən bu vaxtadək Dünya Bankı ilə 50-dən çox layihə icra edilib.




## Təkcə bir ayda dünya bazarında 138 milyon dollarlıq qeyri-neft sektoruna aid məhsulumuz satılıb

# 118 ölkə, 1 milyard dollardan çox ixrac

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin “İxrac İcmalı”nın 2019-cu ilin fevral sayı təqdim olunub.**

İcmalın bu sayında göstərilir ki, bu ilin yanvar ayı ərzində Azərbaycanın ixracı 1,3 milyard dollar təşkil edib. Bu müddətdə qeyri-neft sektoru üzrə ixrac 138 milyon dollar olub.

### Qeyri-neft sektoru üzrə ən çox məhsulumuzu idxal edən Rusiyadır

2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2019-cu ilin yanvar ayı ərzində qeyri-neft sektoru üzrə ixrac 15 milyon dollar və ya 12 faiz artıb. Bu ilin yanvar ayı ərzində Rusiyaya 46,3 milyon, Türkiyəyə 25,2 milyon, Gürcüstana 13,6 milyon, İsveçrəyə 9,8 milyon və İrana 6,9 milyon dollar dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2019-cu ilin yanvar ayı ərzində Rusiyaya qeyri-neft ixracı 26 faiz, Türkiyəyə 9 faiz, Gürcüstana 20 faiz, İrana 4,1 dəfə artıb.

2019-cu ilin yanvar ayı ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında xurma (12,6 milyon dollar) birinci, qabığı təmizlənmiş meşə fındığı (12 milyon dollar) ikinci yerdə qərarlaşıb. Mahlıc isə (11,9 milyon dollar) bu siyahıda üçüncü olub.

### Alkoqollu və alkoqolsuz içkilərin ixracı 4,5 dəfə artıb

Yanvar ayında 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə alkoqollu və alkoqolsuz içkilərin ixracı 4,5 dəfə, elektrik enerjisinin ixracı 4,3 dəfə, kimya sənayesi məhsullarının ixracı 86 faiz artıb.

Bununla yanaşı, pambıq lifinin ixracı 80 faiz, meyvə-tərəvəzin ixracı 24 faiz yüksəlib. Həmçinin plastmas və onlardan hazırlanan məmulatların ixracı 14 faiz artıb.

### İlk üçlükdə Türkiyə, Rusiya və ABŞ dayanır

Yanvar ayı ərzində “Azexport.az” portalına 91,7 milyon dollar məbləğində ixrac sifarişləri daxil olub. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə bu ilin yanvar ayında portala daxil olan ixrac sifarişləri dəyər baxımından 12,5 faiz artıb.

Ümumilikdə isə 2017-ci ilin yanvar ayından bu ilin 31 yanvar tarixinə kimi “Azexport.az” portalına dünyanın 118 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri 1 080,8 milyon dollar təşkil edib.




Cari ilin yanvar ayı ərzində portala daxil olan ixrac sifarişlərinin ilk beşliyində isə Türkiyə (19,8 faiz), Rusiya (16,3 faiz), ABŞ (10,5 faiz), Hindistan (4,7 faiz) və Ukrayna (4,7 faiz) qərarlaşıb.

Daxil olan sifarişləri məhsullar üzrə təhlil etdikdə məlum olub ki, 2019-cu ilin yanvar ayında ən çox ixrac sifarişi soğan, fındıq ləpəsi, pomidor, alma, pambıq yağı, toyuq yumurtası, meyvə şirəsi, tütün, tikinti materialları, şərab, konservləşdirilmiş ət, qənnadı məhsulları, mühərrik yağı, mebel dəsti, nar şirəsi, kosmetik vasitə və s. malları əhatə edib.

### 43,4 milyon dollarlıq meyvə-tərəvəz ixrac edilib

Bu ilin yanvar ayı ərzində meyvə-tərəvəz ixracı 43,4 milyon, pambıq lifi ixracı 11,9 milyon, plastmas və onlardan hazırlanan məmulatların ixracı 11,7 milyon dollar təşkil edib.

Bundan başqa, 11,1 milyon manatlıq elektrik enerjisi, 6,9 milyonluq alüminium və ondan hazırlanan məmulatlar ixrac edilib. Həmçinin kimya sənayesi məhsullarının ixracı 6,7 milyon, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 3,2 milyon, alkoqollu və alkoqolsuz içkilərin ixracı 2,7 milyon, pambıq ipliyi ixracı 859 min dollar gəlir gətirib.

*Rəşad BAXŞƏLİYEV, “Azərbaycan”*

# Latviyada “Made in Azerbaijan” brendi rəğbət qazanır

## Riqadakı ticarət evimiz iki ölkə arasında iqtisadi əlaqələrin genişləndirilməsinə mühüm töhfə verir

**Prezident İlham Əliyevin 3 il öncə ixracın təşviq edilməsi sahəsində imzaladığı fərman və sərəncamlar Azərbaycanın həm iqtisadi inkişafında, həm də xarici iqtisadi əlaqələrinin genişləndirilməsində yeni mərhələnin başlanğıcını qoyub.**




İxracın genişləndirilməsi, rəqabətqabiliyyətli məhsulların ənənəvi və yeni bazarlara çıxışının artırılması ilə bağlı imzalanmış sənədlərə uyğun olaraq xarici ölkələrdə Azərbaycan ticarət evləri yaradılır.

Azərbaycanın xarici ölkələrdəki ticarət evlərindən biri də Latviyanın paytaxtı Riqa şəhərində fəaliyyət göstərir. Ötən il iyul ayının 23-də Riqada təşkil olunan açılış mərasimində hər iki ölkənin rəsmi şəxsləri, Azərbaycan-Latviya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri, sahibkarlar iştirak ediblər.

Ticarət evində Azərbaycan şirkətlərinin müxtəlif növ məhsullarının sərgisi təşkil olunub. Daimi fəaliyyət göstərəcək sərgidə Azərbaycan şirkətlərinin istehsal etdiyi 70 çeşidə yaxın şərab məhsulları, 26 çeşiddə konyak, 10 çeşiddə araq, 26 çeşiddə çay, 23 çeşiddə meyvə şirələri və kompotlar, 70 çeşiddən çox digər məhsullar, o cümlədən bitki yağları, zeytun, fındıq, düyü, meyvə-tərəvəz, tekstil və kosmetik məhsullar, sənaye malları, turizm xidmətləri nümayiş olunur.

Əlbəttə ki, Latviyada “Azərbaycan Ticarət Evi”nin açılması hər iki ölkənin dövlət başçılarının 2 dövlət arasında iqtisadi-ticarət əlaqələrinin inkişafına verdikləri böyük önəmin, Latviyada məhsullarımıza olan marağın göstəricisidir. Azərbaycan Ticarət Evinin açılması iki ölkə arasında iqtisadi əlaqələrin genişləndirilməsinə mühüm töhfə verəcək.

Azərbaycanın Latviya ilə investisiya əməkdaşlığına gəlincə isə, ötən il ölkəmiz tərəfdən Latviyaya 164 milyon dollar, Latviya tərəfindən Azərbaycan iqtisadiyyatına 84 milyon dollar həcmində sərmayə qoyulub. Azərbaycanda tikinti, xidmət, sənaye, rabitə, nəqliyyat, ticarət, bank və sığorta sahələrində 40 Latviya şirkəti fəaliyyət göstərir.

Latviya Respublikasının Azərbaycan-Latviya hökumətlərarası komissiyasının həmsədri, Latviyanın nəqliyyat naziri Uldis Auqulis Riqada Azərbaycan Ticarət Evinin fəaliyyətə başlamasının ikitərəfli iqtisadi əlaqələrin inkişafında mühüm addım olduğunu, ölkələrimiz arasında iqtisadi əməkdaşlığın və işgüzar münasibətlərin inkişafında əhəmiyyətini vurğulayıb. Arvils Aşeradens Latviya ilə Azərbaycan arasında qarşılıqlı əlaqələrin bundan sonra da genişlənəcəyinə əminliyini diqqətə çatdırıb, əməkdaşlığın genişləndirilməsi istiqamətlərinə dair fikirlərini bölüşüb.

*R.BAXŞƏLİYEV, “Azərbaycan”*

## Azərbaycan civə ixracına başlayıb

**Beynəlxalq standartlar əsasında fəaliyyət göstərən “AzerGold” istehsalat nəticəsində formalaşan civənin qanunamüvafiq şəkildə, ətraf mühitə və insan sağlamlığına zərər vurmadan utilizasiya edilməsi istiqamətində əməli tədbirlər həyata keçirir.**



Çovdar filiz emalı sahəsində istismar işləri zamanı çıxarılan filizin tərkibində qızıl və gümüşlə yanaşı, müəyyən miqdarda civə də mövcuddur. İnsan həyatı və ətraf mühit üçün təhlükəli olan bu element xüsusi civə tutan avadanlıqdan istifadə edilərək ayrılır və təhlükəsizlik qaydalarına tam riayət olunmaqla qəbul edilmiş xüsusi standartlara uyğun qablaşdırılır.

İstehsalat nəticəsində yaranan civənin satışı məqsədilə ilk olaraq yerli bazar araşdırılıb və Sinqapurun “Asia Mercury” şirkəti ilə müqavilə imzalanıb. Nəticədə “AzerGold” Çovdar filiz emalı sahəsində istehsalat prosesi zamanı tullantı qismində yaranan 1163 kiloqram həcmində civə partiyasını Sinqapura uğurla ixrac edərək, həm ətraf mühitin mühafizəsinə öz töhfəsini verib, həm də 40 min manatadək mənfəət əldə edib.

## Çinin böyük marketlər şəbəkəsində şərablarımızın satışına başlanılıb

**İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə bu ilin ilk ixrac missiyası Çin Xalq Respublikasının Pekin şəhərinə təşkil edilib.**




Missiyaya qida, şərab və digər spirtli içki istehsalı sahəsində fəaliyyət göstərən 16 Azərbaycan şirkəti daxil edilib. İxrac missiyası çərçivəsində Çin və Azərbaycan şirkətlərinin iştirakı ilə “dəyirmi masa” keçirilib, Azərbaycan məhsulları barədə məlumat verilib, ixracın artırılması istiqamətində fikir mübadiləsi aparılıb.

Mart ayının 1-dən etibarən Çinin “BHG” marketlər şəbəkəsində Azərbaycan şərablarının satışına başlanılıb. İqtisadiyyat Nazirliyindən verilən məlumata görə, bu il Çinə daha 3 ixrac missiyasının təşkili nəzərdə tutulur.

## Bu il Səudiyyə Ərəbistanına ixrac missiyası təşkil ediləcək

**Bu barədə iqtisadiyyat naziri Şahin Mustafayevin Səudiyyə Ərəbistanı Krallığının Baş İnvestisiya Qurumunun sədri, Səudiyyə Ərəbistanı-Azərbaycan Hökumətlərarası birgə Komissiyasının həmsədri İbrahim bin Əbdülrəhman əl-Ömərin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşündə məlumat verilib.**



İki ölkə arasındakı iqtisadi əlaqələrdən söz açan Şahin Mustafayev qeyd edib ki, iqtisadi əməkdaşlığın daha da genişləndirilməsi məqsədilə Bakıda və Ər-Riyadda biznes forumları keçirilib, Ər-Riyad və Ciddə şəhərlərinə ixrac missiyaları təşkil edilib. Azərbaycanın ixrac missiyası bu il də Səudiyyə Ərəbistanına səfər edəcək.

Səudiyyə Ərəbistanı şirkətləri indiyədək Azərbaycan iqtisadiyyatına 370 milyon dollar investisiya yatırıb. Səudiyyə İnkişaf Fondu ilə məktəb tikintisi, kanal və yol tikintisi sahələrində uğurlu maliyyə əməkdaşlığı həyata keçirilib, su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihələri üzrə işlər davam etdirilir.

# Yeni ixrac məkanları araşdırılır

## Xarici bazarın tələblərinə uyğun məhsul yetişdirilməsi üçün müasir istehsal sahələri yaradılır

**Sosial-iqtisadi inkişaf məsələləri, əhalini narahat edən əsas sosial-məişət problemlərinin həlli hər yerdə olduğu kimi, Göyçayda da daim diqqət mərkəzində saxlanılır. Bu, dövlət başçısının nəzarətindədir.**





Prezident tərəfindən yalnız 2018-ci ildə rayon ərazisində yol infrastrukturunun yenidən qurulması, qəzalı vəziyyətdə olan məktəblər üçün yeni binaların tikilməsi, əhalinin içməli su və təbii qazla təminatının yaxşılaşdırılması, dövlət mənzil fondunun təmiri, əhalinin və yaşayış məntəqələrinin sel və daşqın təhlükəsindən mühafizəsi ilə bağlı 8 sərəncam verilib. Sadalanan işlərin yerinə yetirilməsinə ümumilikdə 24 milyon 840 min manat vəsait yönəldilib.

### Ötən il 9 milyon manatlıq məhsul ixrac edilib

Rayon icra hakimiyyətindən aldığımız məlumatda bildirildi ki, ölkə Prezidentinin qeyri-neft sektorunda istehsal edilən malların ixracının artırılması ilə əlaqədar verdiyi tapşırığa müvafiq olaraq rayonun emal müəssisələrində müasir bazar tələblərinə uyğun məhsul istehsalı da diqqət mərkəzində saxlanılır.

İxracyönümlü və rəqabətqabiliyyətli məhsul istehsalının artırılması, yeni ixrac bazarlarının araşdırılması və müəyyən edilməsi istiqamətində də ciddi iş aparılır. Bütün bunların nəticəsidir ki, 2018-ci ildə rayonun emal müəssisələrində istehsal edilmiş 9 milyon manatlıq məhsul respublikadan kənara ixrac edilib. Ümumi sənaye məhsulu istehsalında ixrac olunan məhsulun xüsusi çəkisi isə 36 faiz təşkil edib.

### 2 ildə 17 milyon manatlıq sərmayə

Ümumiyyətlə, ötən dövrdə icra hakimiyyəti tərəfindən investisiya və biznes mühitinin yaxşılaşdırılması, rayon iqtisadiyyatına daha geniş həcmdə özəl sərmayələrin cəlb edilməsi istiqamətində əməli tədbirlər görülüb.

2018-ci ildə sahibkarlıq subyektləri tərəfindən rayonda ümumi dəyəri 9,4 milyon manat olan 14 layihə həyata keçirilib. Bu layihələrin həyata keçirilməsi nəticəsində 177 yeni iş yeri açılıb. Bütövlükdə 2016-cı ilin iyun və 2018-ci ilin dekabr ayları ərzində Göyçay rayon iqtisadiyyatına yerli iş adamları tərəfindən 17,1 milyon manat investisiya qoyulub və 635 iş yeri açılıb. Müvafiq tələblər baxımından cari ildə də özəl investisiyanın cəlb edilməsi ilə bağlı fəal iş aparılması nəzərdə tutulur. Hədəflərə nail olmaq üçün həm yerli, həm də xarici iş adamlarının rayona investisiya qoymalarına və bazarın tələblərinə uyğun yeni istehsal sahələri yaratmalarına maraq yaradılması düşünülür.

Ölkə rəhbərinin tapşırığına uyğun olaraq bu il rayon iqtisadiyyatının yüksəldilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirilməlidir. Hesab edilir ki, ilk növbədə rayonun sənaye potensialından, emal müəssisələrinin layihə üzrə istehsal güclərindən tam istifadə edilməsi üçün tədbirlər görülməli, emal müəssisələrində yeni istehsal sahələrinin yaradılması, müasir bazar tələblərinə uyğun rəqabətqabiliyyətli və ixracyönümlü məhsul istehsalı diqqət mərkəzində saxlanılmalıdır.

### Baramaçılığın əvvəlki şöhrəti bərpa olunur

Məqsəd odur ki, rayonun kənd təsərrüfatının mövcud imkanlarından daha dolğun istifadə edilsin. Bu zaman baramaçılığın inkişafına xüsusi diqqət yetirilməlidir. Keçən əsrin 70-80-ci illərində Göyçay rayonu respublikanın ən iri baramaçılıq rayonlarından biri olub və hər il rayonda 400-420 ton barama tədarük edilib. Baramaçılıq sahəsində rayonun əvvəlki şöhrətinin qaytarılması üçün bu gün real imkanlar mövcuddur və dövlət səviyyəsində də bu sahənin inkişaf etdirilməsinə xüsusi diqqət göstərilir. Qarşıya qoyulmuş hədəflərə çatmaq üçün ilk növbədə baramaçılığın yem bazasının yaradılmasına çalışılır.

Son 3 ildə rayonun kəndlərində 384,6 min ədəd, o cümlədən Çin Xalq Respublikasından gətirilmiş 278 min ədəd tut tingi əkilib. İndi qarşıda duran əsas vəzifə tut tinglərinə lazımi aqrotexniki qulluq göstərilməsi və onların qorunmasıdır. Əsas ehtiyat mənbələrindən biri də kəndlərdə mövcud olan tut ağaclarıdır. Lakin uzun müddət bu ağaclardan baramaçılıq məqsədləri ilə istifadə edilməməsi onların məhsuldarlığını və səmərəliliyini aşağı salıb. Yerli icra və bələdiyyə orqanları həmin ağacların aqrotexniki qaydada budanmasını təmin edir, həmçinin yerli məhsuldar tut tingləri əkməklə kəndlərdə baramaçılığın möhkəm yem bazasını yaradırlar. Rayonun ucqar, iri meyvə bağları olmayan kəndlərində gəlirli sahə olan baramaçılığın inkişaf etdirilməsinə xüsusi diqqət yetirilməsi başlıca məqsədlərdəndir.

### Məhsuldarlığın artırılması mütərəqqi texnologiyalardan keçir

Göyçayda kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının artırılması üçün ciddi tədbirlər görülməsi qərara alınıb. Bu zaman qarşıya qoyulan başlıca məqsəd ilk növbədə taxılçılığın inkişafına diqqət yetirilməsi, taxıl istehsalının, onun məhsuldarlığının yüksəldilməsi hesabına artırılması, sahələrin aqrotexniki qaydada becərilməsi və mineral gübrələrin verilməsi, alaq otlarına qarşı mübarizə tədbirlərinin yerinə yetirilməsinin təmin olunmasıdır.

Göyçay torpaq imkanları məhdud olan rayonlardandır. Ona görə də burada kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının artırılması üçün mütərəqqi texnologiyalar tətbiq edilməlidir. Rayonun kənd təsərrüfatında ənənəvi sahə olan faraş tərəvəz istehsalının artırılması üçün də ciddi tədbirlərin görülməsi və müasir istixanaların tikintisinə üstünlük verilməsi nəzərdə tutulur. Hazırda dövlət tərəfindən də istixanaların tikilməsinə böyük dəstək verilir. Çünki tərəvəz istehsalı ölkənin ixrac potensialına çox müsbət təsir göstərir.

Torpaqlardan səmərəli istifadə olunması da qarşıda duran əsas vəzifələrdən biridir. Rayon ərazisində uzun müddət istifadə olunmayan, həmçinin ayrı-ayrı vətəndaşlar tərəfindən zəbt edilən və təyinatı üzrə istifadəsiz qalan kənd təsərrüfatlı təyinatlı torpaqların müəyyən edilməsi istiqamətində işlər davam etdirilir. Hesab edilir ki, həmin torpaqları əkin dövriyyəsinə daxil etməklə məhsul istehsalını artırmaq, həm də kənd əməkçiləri üçün yeni iş yerləri yaratmaq vacib məqamlardandır.

*Əli SƏLİMOV, “Azərbaycan”*

# İŞİMİZ, GÜZƏRANIMIZ




## Məhsullarımıza əvvəl özümüz dəyər verməliyik

Hər bir ölkənin dünya bazarında xüsusi yeri olan və alıcıların rəğbətini qazanan müəyyən məhsulları var. Bu məhsulların bazara çıxışını təmin edən, imicini qaldıran və onların digərlərindən üstünlüyünü təbliğ edən ciddi reklam siyasəti yeridilir. Nəhəng şirkətlər və korporasiyalar alıcılara brendlərini bəyəndirmək üçün gəlirlərinin böyük bir hissəsini reklama xərcləyir, bununla alıcıların geniş kütləsini öz tərəflərinə çəkməyə çalışırlar. Belə olmasaydı, məsələn, “Marlboro” siqareti bazarda bütün rəqiblərinə meydan oxumazdı, baxmayaraq ki, matah kimi brendə çevrilən siqaretlərin sayı az deyil.

İnsana faydası olmayan Pepsi, Fanta, Coca-cola kimi içkilərin də brend kimi cilalanıb dünya bazarlarında at oynatması əslində, o demək deyil ki, bu içkilərdən yoxdur və onlar Qusarın itburnu limonadından daha faydalıdır. Sadəcə, uğurlu reklam siyasəti bu məhsulları məşhur edib.

Bu baxımdan Azərbaycanda istehsal olunan məhsulların əksəriyyəti insanlar üçün həddən ziyadə xeyirli və bir çox məqamlarda isə müalicəvidir. Eyni zamanda, məhsullarımızın qədimliyi və insanlara faydası da göz qarşısındadır. Yəni, bizim istehsal etdiyimiz, dünya bazarına çıxardığımız məhsulları satmaq üçün hansısa üsula əl atmağa ehtiyac yoxdur. Elə olanı üzə çıxara bilsək, mahiyyətini dünyanın eşidə və anlaya biləcəyi tərzdə ortaya qoysaq yetərli olar.

Bu gün dünyada Azərbaycanın bir çox məhsullarına maraq getdikcə artır. Sürətlə genişlənən ixrac, müxtəlif ölkələrdə açılan ticarət nümayəndəlikləri brendimizin formalaşmasında əhəmiyyətli rol oynayır. Lakin burada incə bir məqama toxunmaq yerinə düşərdi. Azərbaycan brendini, ölkəmizin istehsal etdiyi məhsulları ilk növbədə özümüz sevməli və sonra başqalarına sevdirməliyik. Amma nədənsə milli psixologiyamızın müəyyən axsamaları buna mane olur.

Özünə nəsə almağa gedəndə soruşursan ki, yerli istehsaldırmı? Satıcı sənə elə tərs-tərs baxır ki, təəccüblənməyə bilmirsən. Üzünün ifadəsi ilə səni qandırmağa çalışır ki, o dükanında yerli məhsulu satışa çıxarmağı özünə sığışdırmır. Yəni, nə satırsa, xarici maldır. Paltar soruşursan, o saat başlayırlar sənə Türkiyənin məşhur brendlərini sadalamağa, kərə yağı istəyirsən başlayırlar Yeni Zelandiyanın yağını təriflməyə. Dükan-bazarda olarkən nə qədər çalışsaq da, heç kimə öz malımızın üstünlüklərini başa sala bilmirik. Satıcılar iki ayağını bir başmağa dirəyirlər ki, yerli malı vitrinə vursa kimsə dükanından içəri ayaq basmaz. Əslində isə özümüzün elə mallarımız var ki, dünyanın ən məşhur analoji brendləri onların yanında heç nədir.

Hər bir xalqı tanıdan, digərlərinin gözündə yüksəldən brendlərin sırasında innovasiyalar və yeni texnologiyalar da var. Eyni zamanda, bir sıra ölkələrin və xalqların keçmişi, milli-mədəni irsi ilə sıx bağlı olan, vəhdət təşkil edən sənət nümunələri də brend kimi məşhurdur. Məsələn, Yaponiya dünya bazarına yüksək nanotexnologiyalar və yeni məhsullar çıxarmaqda öndə gedən ölkələrdən biri olsa da, milli geyimlərinə, qədim ənənələrinə sonsuz sədaqəti olan xalq kimi də seçilir. Müasir yaponlar avropalılar kimi geyinsələr də, ənənəvi olaraq ipəkdən tikilən milli geyimlərinə ruhən bağlıdırlar və bu vərdiş həyatlarının ayrılmaz bir hissəsidir. Bu da ona səbəb olur ki, Yaponiyada ipək məhsullarının istehsalı ilə məşğul olan şirkətlərin sayı-hesabı yoxdur.

Biz də xalq kimi keçmişimizə, kökümüzə və milli adətlərimizə romantik bağlılıqla seçilirik. Bu gün də bu keyfiyyətlərimiz nağıllarımızda, əfsanələrimizdə və dastanlarımızda yaşayır, həyatımızın mənasını kəsb edir. Biz çətinlikləri dəf edən, sınaqlara sinə gərə bilən xalqıq. Əgər belə olmasaydı, “Ağ atlı oğlan” surəti nağıllarımıza gəlməzdi və biz qaranlıq dünyadan işığa can atanlardan olmazdıq. Biz əlimizin qabarına sevinə bilirik, gördüyümüz hər hansı bir işi sənət nümunəsinə çevirmək istedadına malikik.

Bütün bu keyfiyyətlər bizə imkan verir ki, dünyaya rəqabətqabiliyyətli məhsullar çıxaraq, milyonlarla insanı sevindirək. Bunun üçün isə Azərbaycan brendini öncə müqəddəs bir titul kimi özümüz sevməli, bu brend adı altında nə varsa özümüz dəyərləndirməli və təbliğ etməliyik. İstehsal etdiyimiz malı əcnəbinin gözündə qiymətə mindirmək, mahiyyətini, faydasını və məzmununu açmaq üçün bu, zəruridir. Əgər amerikalı bir siqareti, ya da içkini hamının beyninə qeyri-adi rəmz kimi otuzdura bilirsə, niyə biz faydalı, xeyirli məhsullarımızı alıcılara təqdim etməyək? “Çobanın könlü olsa, təkədən pendir tutar” atalar sözündə olduğu kimi.

Götürək xalçalarımızı. Azərbaycan xalçaları hər birimiz üçün bənzərsiz sənət nümunəsi olmaqla yanaşı, həm də fəlsəfi məzmun kəsb edir. Xalçasız, xalısız yaşasan, sanki azərbaycanlı deyilsən. Toyunda, ziyafətində yerə xalılar döşənməsə, sanki bu mərasimlər mənasını itirər. Nağıllarımızda uçan, bizi ecazkar dünyalara səyahətlərə aparan sehrli xalçalar bu qədim sənət nümunəsinin hər birimizin qəlbindəki müqəddəs yerinin əfsanəvi yozumudur. Evimizə gələn qonağın da ayaqları altına xalça səririk, dünyasını dəyişənimizi də xalçaya bürüyürük. İngilis, alman, fransız və ya hər hansı bir başqa xalqın nümayəndəsi bütün bunları bilməsə, xalçanın da nə olduğunu anlamayacaq. Amma biz ona xalçanın dəyərini başa salsaq, sevdirə bilsək, mütləq evinin bir küncündə Azərbaycan guşəsi yaradacaq.

Məhz buna görə artıq dünyanın hər yerində - Rusiyada, ABŞ-da və Avropada Azərbaycan xalçalarının sərgiləri açılır, bu mövzuya elmi-praktik konfranslar həsr edilir. Biz xalçaları daha dərindən öyrəndikcə, onun təbliğini genişləndirdikcə, yeni bazarlar qazanmaqdan başqa, mədəniyyətimizin qədimliyini, ənənələrin bizim üçün nə qədər müqəddəs olduğunu dünyaya daha dolğun təqdim etməyə əlavə imkanlar əldə edirik.

***Bahadur İMANQULİYEV,***
***“Azərbaycan”***

## Yeni sistem özünü doğruldur



Hazırda statusundan asılı olmayaraq, bütün vergiödəyiciləri tərəfindən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-faktura təqdim edilir.

Vergilər Nazirliyi media və kommunikasiya mərkəzinin yaydığı məlumata görə, bu sistemin tətbiqinə başlanılan dövrdən indiyədək 98876 vergiödəyicisi tərəfindən 15.018.890 elektron qaimə-faktura təqdim edilib və əməliyyatların dəyəri 77 milyard manatdan artıq olub.

Elektron qaimə-faktura “Onlayn rejimdə” Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən “Asan imza”) vasitəsilə elektron qaydada tərtib edilərək və ya “Lazımi proqramlar”dan istifadə olunmaqla “Oflayn” rejimdə tərtib edildikdən və elektron imza (o cümlədən “Asan imza”) vasitəsilə imzalandıqdan sonra malların, işlərin və xidmətlərin alıcısına göndərilir. Sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) alınmasını təsdiq edən elektron qaimə-faktura satıcıdan alınmalıdır.

Vergi Məcəlləsinin 58.13-cü maddəsinə əsasən, elektron qaimə-faktura və ya elektron vergi hesab-fakturası təqdim edilməli olduğu halda, malların elektron qaimə-faktura və ya elektron vergi hesab-fakturası verilmədən təqdim edilməsinə görə - malları təqdim edən şəxsə təqvim ili ərzində belə hala birinci dəfə yol verdikdə təqdim olunmuş malların satış qiymətinin 10 faizi, ikinci dəfə yol verdikdə 20 faizi, üç və daha çox dəfə yol verdikdə isə 40 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir.

## Dövlət Maliyyə Nəzarəti Xidməti ötən ilin hesabatını açıqlayıb

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti tərəfindən ötən ildə aparılan nəzarət tədbirləri nəticəsində normativ hüquqi aktların tələblərinə əməl edilmədiyinə görə 7.027,1 min manat məbləğində artıq və əsassız ödənişlər aşkarlanıb, təqsirkar şəxslər hesabına həmin vəsaitin 2.195,3 min manatının bərpası təmin olunub, digər əsassız ödənişlərin davam etdirilməsi dayandırılıb.

Maliyyə Nazirliyinin mətbuat xidmətinin məlumatına görə, 2018-ci il üçün tərtib olunmuş iş planına uyğun olaraq, dövlət büdcəsindən maliyyələşən 10 rayon (şəhər) icra hakimiyyətlərinə, 7 şəhər ərazi nümayəndəliyinə, 5 təhsil, 7 səhiyyə və 1 geodeziya və kartoqrafiya müəssisəsinə, 2 elmi tədqiqat institutuna, 1 protez-ortopedik bərpa və 1 uşaq bərpa mərkəzlərinə, 1 ali təhsil müəssisəsi, 2 səfirliyə, 1 nəqliyyat agentliyinə, 1 mədəniyyət müəssisəsinə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Məşğulluq Xidmətinə və onun 3 rayon məşğulluq mərkəzinə, eyni zamanda, bir sıra şəhər və rayonlarda yerləşən büdcə təşkilatlarına ayrılmış vəsaitlərin təyinatı üzrə xərclənməsi üzrə nəzarət tədbirləri həyata keçirilib. Nəzarət tədbirləri çərçivəsində büdcə təşkilatlarında maliyyə qaydalarının pozulmasına yol vermiş vəzifəli şəxslər barəsində İnzibati Xətalar Məcəlləsinə uyğun inzibati protokollar tərtib edilib, həmin Məcəllənin 410.1-ci və 410.2-ci maddələrinə uyğun olaraq 676 vəzifəli şəxsə, ümumilikdə 554,6 min manat məbləğində inzibati cərimələr tətbiq edilib və cərimələrin dövlət büdcəsinə ödənilməsi təmin olunub.

Hesabat dövründə 12 təşkilat üzrə aşkar edilmiş artıq ödənişlərin 4.550,5 min manat hissəsinə dair nəzarət tədbirləri üzrə mənimsəmə əlamətləri müşahidə olunan nöqsanlara hüquqi qiymət verilməsi məqsədilə müvafiq sənədlər Baş Prokurorluğa göndərilib.

26 təşkilat üzrə aşkar edilmiş əsassız ödənişlərin 473,1 min manat hissəsinə dair nəzarət tədbirləri üzrə sənədlər isə İnzibati Xətalar Məcəlləsinin 54.2-ci maddəsinə uyğun olaraq icraatın başlanması üçün qərar qəbul edilməsi məqsədilə prokurorluq orqanlarına göndərilib.

Eyni zamanda, 2018-ci ildə Dövlət Maliyyə Nəzarəti Xidmətinin mütəxəssisləri tərəfindən hüquq-mühafizə orqanlarının qərarlarına əsasən, 12 təşkilatda aparılmış yoxlamalar yekunlaşdırılaraq, müvafiq sənədlər aidiyyəti üzrə təqdim edilib.

Ötən il aparılan nəzarət tədbirləri zamanı bir sıra xarakterik nöqsanlar, o cümlədən bəzi yerli icra hakimiyyəti orqanlarında rayon mərkəzlərinin və şəhərlərinin abadlığı, xəstəxanaların, məktəblərin, mədəniyyət müəssisələrinin, icra hakimiyyətlərinin binalarının və digər sosial obyektlərin, habelə yolların təmiri və tikintisi üçün ayrılmış vəsaitlərin təyinatına xərclənməsi üzrə aparılan nəzarət tədbirləri ilə yerinə yetirilmiş kimi göstərilən işlərin həcminin əsassız olaraq artıq yazıldığı və s. faktlar aşkarlanıb.

Aşkar edilmiş nöqsanların tam aradan qaldırılması və belə nöqsanlara digər təşkilatlarda yol verilməsinin qarşısının alınması məqsədilə, habelə nöqsanlara yol verilməsində təqsiri olan vəzifəli şəxslər barəsində tədbirlər görülməsi üçün müvafiq mərkəzi və yerli icra hakimiyyəti orqanlarına təqdimatlar göndərilib.

## Yüksək keyfiyyətli toxum məhsuldarlığın ilkin şərtidir

Dünya təcrübəsi göstərir ki, əkinçilikdə yüksək məhsuldarlıq əldə edilməsi üçün mütərəqqi texnika və texnologiyalardan savayı, elit toxum növləri də müstəsna rol oynayır. Odur ki, dünyada daha məhsuldar sortların yaradılması istiqamətində elmi araşdırmalar ildən-ilə artır. Ölkəmizdə də daha məhsuldar, quraqlığa və xəstəliklərə qarşı davamlı toxum sortlarının yaradılması istiqamətində müəyyən işlər görülür. Bu məqsədlə xarici ölkə və beynəlxalq təşkilatlarla əməkdaşlıq edilir.



Azərbaycanda son illər toxumçuluğun inkişafı ilə bağlı bir çox qanun və qərarlar qəbul olunmuş, yeni qurumlar yaradılmışdır. Eyni zamanda, “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı” və “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nda fermerlərin məhsuldar sortlarla təmin olunması qarşıya vəzifə kimi qoyulmuşdur.

Qeyd edək ki, hazırda dövlət reyestrinə daxil edilən toxum və ting istehsalçısı şəhadətnaməsi alan 343 fiziki və hüquqi şəxs bu sahədə fəaliyyət göstərir. O da maraqlı faktdır ki, istehsal olunan toxum və tinglərin 98 faizdən çoxu özəl toxumçuluq və tingçilik müəssisələrində yetişdirilir. Bunlardan 223 fiziki və hüquqi şəxs buğda və arpa, 8 özəl toxumçuluq təsərrüfatı qarğıdalı toxum sortlarını yetişdirməklə məşğuldur.

Kartof ən çox becərilən bitki növlərindəndir. Hazırda yeni kartof sortlarının yetişdirilməsi ilə 7 özəl toxumçuluq təsərrüfatı məşğul olur. Bundan başqa, 13 özəl toxumçuluq təsərrüfatı pomidor, kələm və soğanın reproduksiyalı toxum istehsalı sahəsində fəaliyyət göstərir. Paxlalı bitkilər və pambığın reproduksiyalı toxum istehsalı isə dövlətə məxsus elmi-tədqiqat müəssisələrinin öhdəsindədir.

Prezident İlham Əliyev toxumçuluğun inkişafı, bu sahədə digər ölkələrdən asılılığı aradan qaldırmaq üçün müvafiq sərəncamlar imzalayıb, dövlət toxum fondu yaradılıb. Fondun fəaliyyəti sayəsində son illər toxumçuluğun inkişafı ilə bağlı xeyli iş görülüb. Xaçmaz, Şəki, Ağcabədi, Qobustan və Cəlilabad rayonlarında fondun 5 emal müəssisəsi yaradılıb. Burada toxumlar saxlanılır, təmizlənir, dərmanlanır, qablaşdırılır, sonra yüksək kondisiyalı toxumlar fermerlərə çatdırılır. Müəssisələrin hər birinin istehsal gücü 5 tondur.

Bu sahədə fəaliyyət göstərən digər dövlət qurumu Bitki sortlarının qeydiyyatı, Toxum üzrə dövlət nəzarəti xidmətidir. Dövlət xidmətinin tabeliyində 1 respublika və 12 regional toxum sertifikatlaşdırılma mərkəzləri var. Bunların da bir neçəsi artıq fəaliyyətə başlayıb. Xidmətin 9 laboratoriyası müasir cihaz və avadanlıqlarla təmin edilib, qalan 3 mərkəz üçün avadanlıqlar alınacaq.

Müsbət haldır ki, toxum istehsalı ilə yeni texnika və texnologiyaların geniş şəkildə tətbiq olunan aqroparklar da məşğul olmağa qərar verib. Bunlardan biri Biləsuvar rayonunda fəaliyyət göstərən “Aqropark Yaşıl Ada” MMC-dir. Araz çayının yeni qol-kanalının açılışı sayəsində 3000 hektar ərazinin təyinatı dəyişdirilərək əkin dövriyyəsinə cəlb olunub. Burada aqropark fəaliyyət göstərəcək. Qeyd edək ki, əvvəllər bu ərazidən qış-otlaq sahəsi kimi istifadə edilirdi.

Bu layihə Biləsuvar rayonunun 10356 hektar əkin sahəsini əhatə edəcək. Bunun 3000 hektarı “Yaşıl Ada” aqroparkının yeni istifadəyə verilən torpaq sahəsidir. Aqroparkın ərazisində zəruri infrastrukturun yaradılması, torpaqların əkinə, yüksək məhsuldarlığa hazırlanması ilə bağlı bir çox işlər görülüb. Belə ki, 10 min tonluq anbar, ofis binası, işçilərin istirahətini təmin etmək üçün 6 tarla düşərgəsi tikilib, 8 kilometr elektrik xətti çəkilib, 100 kilovoltluq transformator quraşdırılıb, 10 kilometr suvarma kanalı təmizlənib, aqroparka gedən 18 kilometr yol təmir olunub, 60 kilometr sahələrarası yollar yararlı vəziyyətə gətirilib.

Aqroparka İqtisadiyyat Nazirliyi tərəfindən 7 milyon manat dəyərində investisiya təşviqi sənədi verilib. Bu il birinci mərhələsinin istifadəyə verilməsi nəzərdə tutulan aqropark gələcəkdə böyük toxumçuluq təsərrüfatı kimi də fəaliyyət göstərəcək.

***Rüstəm KAMAL,***
***“Azərbaycan”***

## Azərbaycan qazının ixrac marşrutları Səngəçaldan başlanır



Xəzərin Azərbaycan sektorundakı “Şahdəniz” yatağından hasil olunan qaz və kondensat sualtı xətlərlə Səngəçal terminalına çatdırılır. Buradan isə karbohidrogenlər kəmərlərə vurularaq istehlakçılara göndərilir. “Şahdəniz-1”in qazını terminal 13 il əvvəl qəbul edərək təhlükəsiz şəkildə nəzərdə tutulan ünvanlara yola salır. Keçən il iyun ayının 30-dan isə “Şahdəniz-2” layihəsindən Türkiyəyə plana uyğun olaraq ilk kommersiya məqsədli daşımalara da başlanıb.

İyulun 30-da yatağın şimal cinahındakı quyulardan birinin ventili açılaraq “Şahdəniz Bravo” platformasından ilk qaz əldə olunub. Bu da ümumilikdə Xəzər dənizində sualtı quyudan çıxarılan ilk hasilatdır. Həmçinin təhlükəsiz, büdcədən nəzərdə tutulduğundan aşağı qiymətə başa gəldiyi və cədvəlin qabaqlanması ilə həyata keçirildiyi üçün mühüm nailiyyət sayılır. Hazırda “Şahdəniz Bravo”dan Səngəçala qazın nəqli davam edir.

Qaz Səngəçaldan əsasən Cənubi Qafqaz Boru Kəməri (CQBK) və terminalın emal obyektlərini “Azəriqaz”ın qazpaylama sistemi ilə birləşdirən SOCAR-a məxsus kəmərlə nəql olunur. Keçən il terminaldan gündə orta hesabla 28,4 milyon standart kubmetr (1003 milyon standart kubfutdan çox) “Şahdəniz” qazı ixrac edilib.

Hazırda terminalın texniki emal sistemlərinin gündəlik gücü “Şahdəniz” qazı üçün təqribən 55 milyon standart kubmetr təşkil edir. “Azəri-Çıraq-Günəşli” yataqlarından hasil edilən səmt qazı da daxil olmaqla gündəlik ümumi qaz emalı və ixracı gücü isə təqribən 75 milyon standart kubmetrdir.

“Şahdəniz-2” layihəsi çərçivəsində terminalda müvafiq genişləndirmə işləri həyata keçirilib. Terminalın ərazisində qazı qəbul, emal və ixrac etmək üçün yeni qurğular tikilib.

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz tikintinin ən qızğın çağında burada 10 min nəfərə yaxın işçi qüvvəsinin çalışdığını, 50,5 milyon adam-iş saatı icra olunduğunu bildirib. Q.Counz həmin insanların əməyini yüksək dəyərləndirərək deyib: “Onlar daim kombinzonda olur, başlarında dəbilqə, gözlərində eynək işləyirlər. Əllərinə əlcək, ayaqlarına örtülü ayaqqabı geyinirlər. Belə bir vəziyyətdə işləmək, həm də məsuliyyətli bir obyekti inşa etmək asan deyil. Üstəgəl, Səngəçal yarımsəhra zonadır və yayda burada havanın temperaturu 40 dərəcə istidən əskik olmur. Əgər bunları nəzərə alsaq, cəsarətlə deyə bilərik ki, bu insanlar böyük qəhrəmanlıq göstəriblər”.

Yeni qurğular artıq 10 aydır “Şahdəniz-2” qazını qəbul edir. Mavi yanacaq genişləndirilmiş CQBK ilə Azərbaycanın və Gürcüstanın ərazisindən keçərək TANAP-a (Transanadolu Qaz Boru Kəməri) qoşulur. İndiyədək Türkiyəyə yeni xətlə 1 milyard kubmetrdən çox qaz ixrac olunub. Bu, “Cənub Qaz Dəhlizi” Məşvərət Şurasının keçən ay Bakıda keçirilən beşinci toplantısında da vurğulanıb.

Hasilat da getdikcə artır. “Şahdəniz-2”də artıq 8 quyunun ağzı açılıb və bunların hamısından qaz çıxarılır.

***Flora SADIQLI,***
***“Azərbaycan”***

## Sahibkar və menecerlər Almaniyada təcrübə keçəcəklər

“Azərbaycanın biznes ictimaiyyətində menecerlərin ixtisasının artırılması üzrə Almaniya-Azərbaycan birgə Proqramı” çərçivəsində iyunun 11-dən iyulun 6-dək 19 sahibkar və menecerdən ibarət qrup Almaniyanın Heydelberq şəhərində yerləşən “AHP-International” Tədris Mərkəzində təlim və istehsalat təcrübəsi keçəcək.



Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən bildirilib ki, martın 13-14-də Almaniyada təlim və istehsal müəssisələrində təcrübə keçəcək sahibkar və menecerlər üçün seminar təşkil olunub. İkigünlük seminarda sahibkar və menecerlər beynəlxalq iqtisadi kooperasiya, Almaniya müəssisələri ilə işgüzar danışıqların aparılması və əməkdaşlığın qurulması və s. barədə ətraflı məlumatlandırılıb, onları maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Almaniyanın Federal İqtisadiyyat və Enerji Nazirliyi arasında Anlaşma Memorandumuna uyğun olaraq, “Azərbaycanın biznes ictimaiyyətində menecerlərin ixtisasının artırılması üzrə Almaniya-Azərbaycan birgə Proqramı” çərçivəsində 25 mart - 19 aprel tarixlərində Almaniyada təlim və istehsalat təcrübəsi keçəcək 18 sahibkar və menecer üçün də seminar təşkil olunub.

# KƏNDİMİZ

## Basqalın sənətkar qadınlarından danışılıb



Basqal qəsəbəsi İsmayıllı rayonunda qədim yaşayış məskənlərindəndir. Burada qədim xalq sənətkarlığı bu gün də yaşadılır. Vaxtilə sərbafları (kəlağayı toxucuları) ilə məşhur olan qəsəbədə kəlağayı muzeyi, bazar meydanı bu gün buraya gələnlərin diqqətini çəkir.

Yaxınlıqdakı Fit dağı, Fit qalası (Mustafa xan qalası da deyilir) turizm potensialı yüksək olan İsmayıllıda Basqalı özünəməxsus gözəlliyi və tarixiliyi ilə fərqləndirir. Basqalı abadlaşdırmaq və turistləri cəlb etmək üçün çox böyük layihələr icra olunacaq. Prezident İlham Əliyevin bu məqsədlə xüsusi proqramın hazırlanması ilə bağlı verdiyi sərəncam qəsəbəyə yeni həyat gətirməkdədir.

Bu fikirlər qəsəbədə keçirilən "Basqalın sənətkar qadınları" mövzusundakı seminarda səsləndirilib.

Rəmzi Novruzov adına Basqal qəsəbə tam orta məktəbdə təşkil olunan seminarda Dövlət Tarix-Mədəniyyət Qoruğunun elmi işçisi Azadə Şirəliyeva "Basqalın sənətkar qadınları" mövzusunda məruzə edib. Məruzəçi hələ orta əsrlərdən Basqalda hər bir evdə toxuculuq dəzgahının fəaliyyət göstərdiyini bildirib. XX əsrdə Basqalda sexlər yaradıldıqdan sonra qəsəbə əhalisinin əksəriyyəti toxuculuq və boyaqçılıqla məşğul olub. Həmin dövrdə basqallılar kəlağayı toxuculuğu sənətini 14 şəhərdə yayıblar. Sexlərdə işləyən Basqal qadınlarının sayı 200 nəfərdən çox idi. Bu qadınlar toxuculuq, qəlibçilik, məkik, ipək sərmək və boyaqçılıqla məşğul olublar.

Məruzəçi Basqalın vəfat etmiş və bu gün fəaliyyət göstərən sənətkar qadınları haqqında ətraflı məlumat verib. Vurğulayıb ki, gələcəkdə bu sənətkarlar haqqında məlumat bazasının yaradılması planlaşdırılır.

Seminarda tam orta məktəbin direktoru Ağasəfər Qafarov, Azərbaycan Dövlət Turizm Agentliyinin əməkdaşı Elşən Mustafayev, tarix üzrə fəlsəfə doktoru Fariz Xəlilli çıxış edərək, son vaxtlar Basqalın sənətkar qadınları - kəlağayı ustaları, toxucular, dərzilər, rəssamlar, şirniyyatçılarla yaxın ünsiyyət qurulduğunu bildirib, onlarla daha sıx əməkdaşlıq ediləcəyi diqqətə çatdırılıb.

Sonda Basqalın bir qrup sənətkar qadınına hədiyyələr verilib.

## Cari ildə Goranboyda barama istehsalı 18 tona çatdırılacaq

Kənd təsərrüfatının gəlirli sahələrindən olan baramaçılığın inkişafına dövlət dəstəyi Goranboy kümçülərində bu sahəyə marağı xeyli artırıb.

Rayonda barama istehsalı 2,17 tondan 9,8 tona yüksəlib, kümçülər isə 100 min manata yaxın gəlir əldə ediblər.

Cari ildə barama istehsalını 18 tona çatdırmaq nəzərdə tutulub. Bunun üçün son illər rayon üzrə müvafiq yem bazası yaradılıb. Qarşıdakı günlərdə isə müvafiq komissiya barama bəsləniləcək yerləri və mövcud şəraiti öyrənməyə başlayacaq. Eyni zamanda, əhali arasında maarifləndirmə işləri aparılacaq.

## İstehsal artır, kəndlər abadlaşır, güzəran yaxşılaşır

Əvvəlki illərdə olduğu kimi, 2018-ci ildə də iqtisadiyyatın bütün sahələrində uğurlu nəticələr qazanıldı. Həyata keçirilən tədbirlər sayəsində yeni istehsal sahələri fəaliyyətə başladı, kiçik və orta sahibkarlıq inkişaf etdi. Getdikcə daha çox məhsul istehsal edən sahibkarlar xarici bazarlara çıxdılar. "Made in Azerbaijan" brendini yaxın və uzaq ölkələrdə tanıtdılar.



İndi ölkəmizdə elə şəhər və rayon yoxdur ki, bu inkişafdan geridə qalsın. Belə rayonlardan biri də Göygöldür. Bu rayon təkcə füsunkar təbiəti, əsrarəngiz gözəllikləri ilə tanınmır. Burada istehsal edilən kənd təsərrüfatı və ərzaq məhsulları xarici ölkələrdə həvəslə alınır, o cümlədən Göygöl Şərab Zavodunun məhsulları.

Keçən il rayonda istehsal edilən məhsul və xidmətlərin həcmi 174 milyon manata çatmış, 822 yeni iş yeri açılmışdır. Onların 562-si daimidir.

Sahibkarlığın inkişafına yaradılmış münbit şərait nəticəsində rayonda hüquqi şəxslərin sayı 576-ya çatmışdır. Keçən il Sahibkarlığın İnkişafı Milli Fondu tərəfindən 26 iş adamına 270 min manat məbləğində güzəştli kredit verilmişdir. Bunun sayəsində əhalinin məşğulluğu artmış, sahibkarlıq fəaliyyəti genişlənmiş, ənənəvi kənd təsərrüfatı sahələri inkişaf etmişdir. Sahibkar Famil Nəsibov tərəfindən Nadil kəndində 2,5 hekarda istehsal gücü 5 min ton olan müasir istixana, sahibkar Şəmil Cahangirov tərəfindən Hacıməlik qəsəbəsində meyvə və üzüm bağlarının məhsullarını çeşidləmək, qurutmaq və qablaşdırmaq üçün kompleksin tikintisinə başlanılmışdır. Bu obyektlərdə 120 nəfərin işlə təmin olunması gözlənilir.

Rayonun əkin sahələri az olsa da, aparılan intensiv texnologiyalar nəticəsində hər il sahələrdən yüksək məhsul götürülür. Keçən il fermerlər 19724,3 ton taxıl istehsal etmişlər. Bunun 14616,7 tonu buğda, 5107,6 tonu arpadır. Aqrotexniki tədbirlərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsi sayəsində şəkər çuğunduru istehsalı da xeyli artmışdır. Belə ki, fermerlər 501 hektar şəkər çuğunduru sahəsindən 18478 ton məhsul götürmüşlər. Fermer Taleh Hüseynov kənd təsərrüfatı məhsullarının istehsalında daha yüksək nailiyyətlər əldə etdiyi üçün Prezidentin sərəncamı ilə 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif olunmuşdur.

Fermerlərə dövlət tərəfindən bir çox sahələr üzrə güzəştlər olunmuşdur. 1577 nəfər toxum və kənd təsərrüfatı məhsulları istehlakçılarına dövlət büdcəsindən 846 min 972 manat subsidiya və yardım verilmiş, 611 istehsalçıya 70 faiz güzəştlə dəyəri 605 min 220 manat olan 1010 ton mineral gübrə və 2813 litr kimyəvi preparatlar satılmışdır. Bunlardan əlavə, heyvandarlara dəyərinin 50 faizini ödəmək şərti ilə 31 baş cins mal-qara satılmışdır. Süni yolla mayalandırılmış 846 baş mal-qaradan 356 baş bala alınmışdır. 2018-ci ildə rayonda qaramalın baş sayı 20,2 min, davarın baş sayı 147,5 mindən çox olmuş, ət, süd istehsalı artmışdır.

Məlumdur ki, kənd təsərrüfatı məhsullarının istehsalı suvarmadan çox asılıdır. Bunu nəzərə alan rayon suvarma sistemləri idarəsi il ərzində 130 subartezian quyusunda cari, 5-də əsaslı təmir işləri aparmış, qapalı boru su şəbəkəsinin 5, beton kanalların 12 kilometrini təmir etmiş, sel və daşqınların qarşısını almaq məqsədilə çay məcrasında təmizləmə işləri aparmışlar.

Rayonda abadlıq və yenidənqurma işləri də davam etdirilmiş, əsas kapitala qoyulmuş 33 milyon 873 min manatın 32 milyon 295 min manatı tikinti-quraşdırma işlərinə yönəldilmişdir. Çaylı-Pənahlılar-Dozular kəndlərarası, Göygöl-Mollacəlilli, Tülallar, Əzgilli avtomobil yollarında, eləcə də Qızılca, Yalqışlaq, Sərkar, Haçaqaya, Yeni Qızılca, Xaqani, Əlimədədli, Nadil, Zurnabad və Çaykənddə kənddaxili yollarda təmir işləri görülmüşdür.

Əhalinin içməli su təminatını yaxşılaşdırmaq üçün Kürəkçay su mənbəyində yaranmış qüsurlar aradan qaldırılmış, magistral su kəmərlərində və şəhərdaxili su şəbəkəsində, eləcə də Ağdağ qəsəbəsində və Aşıqlı kəndində polad borular polietilen borularla əvəz edilmiş, nasos stansiyası əsaslı təmir olunmuşdur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Taxıl əkinlərinə yemləmə gübrəsi verilir



Artıq hər yerdə, xüsusən kəndlərdə baharın nəfəsi duyulur. Qış yuxusundan oyanan torpağa hərarət gəlir. Otlar, çəmənlər, payızda əkilən taxıl sahələri yavaş-yavaş inkişaf etməyə başlayır. Yaz tarla işlərinin başlanğıcı, nübarı kimi bu əlamət hər bir kəndlini, fermeri sahəyə səsləyir. Deməli, taxıl əkinlərinə yemləmə gübrəsi vermək lazımdır. Bu işin vaxtında və keyfiyyətlə görülməsi bol məhsul üçün başlıca şərtdir. Keçən ildən fərqli olaraq, bu il ölkəyə kifayət qədər yemləmə gübrəsi gətirilmişdir. Hazırda əkinçi yubanmadan onu sahələrə verir.

### Salyan

Dövlət başçısının qarşıya qoyduğu mühüm vəzifələrdən biri idxaldan azad olmaqla daxili bazarı kənd təsərrüfatı məhsulları, o cümlədən taxılla təmin etməkdən ibarətdir. Ölkəmizdə bununla bağlı ardıcıl tədbirlər həyata keçirilir.

Kənd təsərrüfatının mühüm sahəsi olan taxılçılıq Salyan rayonunun aqrar sektorunda önəmli yer tutur. Keçən ilin payızında burada 16 min 686 hektarda taxıl əkilmişdir. Bunun 6 min 769 hektarı buğda, 9 min 917 hektarı arpadır. Şum altına və əkin zamanı torpağa amafos və digər mineral gübrələr verilmişdir. Hazırda torpağa yemləmə gübrələri verilir. Bunun üçün "Aqrolizinq" ASC rayon filialına kifayət qədər azot və karbamid gətirilib. İşi optimal müddətdə başa çatdırmaq üçün bütün qüvvələr səfərbər edilib. Alaq otlarına qarşı lazımi qədər herbisid tədarük olunmuşdur. Rayonun taxılçıları hər hektarın məhsuldarlığını artırmaq üçün bütün imkanlardan səmərəli istifadə edirlər.

### Cəlilabad

Məlum olduğu kimi, Cəlilabad Azərbaycanın iri və qabaqcıl taxılçılıq rayonlarındandır. Bu sahədə rayonun müsbət ənənələri var. Keçən əsrin 60-70-ci illərində əldə olunmuş yüksək nəticələrə görə Cəlilabadı "Azərbaycanın Ukraynası" adlandırmışlar.

Ənənə indi də davam edir. Taxılçılar ötən hər ili uğurla yola salırlar. Hər kəs çalışır ki, aqrotexniki tədbirlərə vaxtında əməl etsin, torpağa daha keyfiyyətli toxum səpsin ki, bəhrəsi yaxşı olsun.

Keçən ilin payızında rayon üzrə 62 min 608 hektarda əkin aparılmışdır. Bunun 54 min 908 hektarı buğda, 4 min 500 hektarı arpa və 3 min 200 hektarı vələmirdir. Təcrübəli əkinçilər seçmə yolu ilə şum altına kifayət qədər üzvi, səpin zamanı toxumla birlikdə 1350 ton amafos gübrəsi vermişlər.

Rayon Dövlət Aqrar İnkişaf Mərkəzinin rəisi Rahib Kərimov bildirdi ki, keçən ildəkindən fərqli olaraq, bu il kifayət qədər azot və digər mineral gübrə var. Fermer "Aqrolizinq" ASC-nin rayon filialına müraciət edib özünə lazım olan gübrəni ala bilər. "Hər hektara nə qədər səpilir" sualımıza isə belə cavab verdi: "O baxır torpağın tərkibinə. Hər bir fermer əkin sahəsinin torpağını xüsusi laboratoriyada analiz etdirdikdən sonra mütəxəssis rəyi ilə bunu həyata keçirir".

Öyrəndik ki, 8 min 500 hektara azot gübrəsi səpilib. Bu işə 20-dən çox texnika cəlb olunub. Yemləmə aparılan yerlərin suvarılmasına başlanılmışdır. Növbəti aqrotexniki tədbirin - alaq otlarına qarşı herbisidlərin səpilməsinə hazırlıq görülür.

### Yardımlı

Rayon Aqrar İnkişaf Mərkəzinin rəisi Şahlar Əliyev cari ilin məhsulu üçün 2018-ci ilin payızında 3 min 441 hektarda səpin aparıldığını və bunun 3 min 191 hektarının buğda, 124 hektarının arpa və 126 hektarının vələmir olduğunu bildirdi. Əkin zamanı sahələrə 151 ton amafos və digər mineral gübrələr verilmiş, sahələrdə normal çıxış alınmışdır.

Bu il Yardımlıda da qış əvvəlki illərlə müqayisədə mülayim keçmişdir. Son vaxtlar yağan yağışlar isə hər tərəfdə torpaqdan otların baş qaldırmasına səbəb olmuşdur. Dağ yamaclarındakı çəmənliklər bir azdan baharın gəlişi ilə gül-çiçəyə bürünəcək.

Burada da torpaq mülkiyyətçiləri yaz qayğıları ilə yaşayırlar. Onlar taxıl əkinlərinə yemləmə gübrəsi verməyə başlamışlar. Mineral gübrələrin dəyərinin 70 faizinin dövlət tərəfindən ödənilməsi, texnikanın lizinq yolu ilə verilməsi və digər tədbirlər kənd adamının əl-qolunu açmışdır.

Yardımlı rayonunun iqtisadiyyatını kənd təsərrüfatı təşkil edir. Yazda rayon üzrə 1800 hektarda kartof, kələm, mərci, lobya və digər bitkilər əkiləcək. Yetişdirilən məhsulların keyfiyyətinə isə söz ola bilməz. Dəmyə şəraitdə yetişən kartof digər yerlərin məhsulu ilə müqayisədə daha dadlıdır. Tütünçülüyün inkişafı üçün də müvafiq işlər görülür. Keçən il rayon üzrə 39,7 ton quru tütün istehsal olunub. Xeyrini görən tütünçülər yazda əkin sahələrini genişləndirərək 55 hektarda əkin aparmağı planlaşdırmışlar. Əvvəlki illərdən fərqli olaraq, indi tütün şitili də rayonda yetişdirilir.

### Hacıqabul

Rayonda kənd təsərrüfatı məhsulları istehsalının artırılması ilə bağlı son illər müəyyən tədbirlər görülür. Hazırda burada 4 aqropark fəaliyyət göstərir. Ötən ilin payızında taxıl əkilmiş 36 min 933 hektar sahənin 22 min hektarı bu aqroparkların payına düşür. Əkinlərin 25 min 925 hektarı buğda, 11 min 8 hektarı arpadır.

Payızda səpin zamanı taxıl toxumu ilə birlikdə torpağa 1020 tondan çox mineral gübrələr verilmişdir. Mütəxəssislər sahələrdə normal çıxış alındığını bildirirlər. Havaların nisbətən qızması, torpaqda hərarətin yaranması nəticəsində bitkilər artıq inkişaf fazasına daxil olmuşdur. Hər bir əkinçi yemləmə gübrəsinin məhz bu vaxt verilməsini münasib bilir. Onlar artıq bu işə başlamışlar. Rayondakı Dövlət Aqrar İnkişaf Mərkəzinin mütəxəssisi Əlabbas Məmmədov bildirdi ki, az vaxtda 10 min hektara azot gübrəsi verilmişdir. Texnikanın köməyi ilə bu mühüm tədbir vaxtında başa çatdırılacaq.

Ə.Məmmədov onu da bildirdi ki, rayonda lazımi qədər azot gübrəsi vardır. Texnika sarıdan da heç bir problem yoxdur. Yemləmə aparılan sahələrin suvarılması məqsədilə rayon suvarma sistemləri idarəsinin kollektivi bütün zəruri tədbirləri görmüşdür. Kanallar lildən təmizlənmiş, nasoslar, hidrotexniki qurğular saz vəziyyətə gətirilmişdir.



***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Bölgələrdə də bayram yarmarkaları keçirilir

Novruz bayramı ilə əlaqədar respublikamızın bütün bölgələrində olduğu kimi, Yevlax rayonunda da ərzaq və kənd təsərrüfatı məhsullarının satış yarmarkası keçirilir.



Dövlət başçısının tapşırığına əsasən xalqımızın ən əziz bayramı ərəfəsində təşkil olunan yarmarkaların məqsədi əhalinin ərzaq və kənd təsərrüfatı mallarına artan tələbatının daha dolğun ödənilməsi, istehlakçıların seçim imkanlarının artırılması, eləcə də süni qiymət artımının qarşısının alınmasıdır.

Yevlax şəhərində açılan yarmarkada əsasən rayonda istehsal olunan ət və süd məhsulları, meyvə, tərəvəz, göyərti, bayram çərəzləri satışa çıxarılıb. Məhsullar alıcılara bazardakından xeyli ucuz qiymətə təklif olunur. Yarmarkada alıcıların və satıcıların rahatlığı üçün hər cür şərait yaradılıb, məhsulların keyfiyyəti, sanitariya-gigiyena nəzarətindən keçirilməsi təmin olunub. Alıcıların məlumatlandırılması məqsədilə yarmarkanın girişində məhsulların qiyməti yazılmış lövhə vurulub.

Sakinlər yarmarkanın keçirilməsini rəğbətlə qarşılayıb, məhsulların keyfiyyətindən və qiymətindən razılıq ediblər.

Yevlax Şəhər İcra Hakimiyyətindən bildirilib ki, bayram satış yarmarkaları martın 16-dan etibarən gündəlik təşkil olunacaq.

## Ağdamın kəndində qədim at fiquru tapılıb

Ağdam rayonunun Üçoğlan kəndi ərazisində eradan əvvəl XII-XI əsrlərə aid Sarıçoban kurqanı yaxınlığında at fiquru aşkar edilib. Maddi mədəniyyət nümunəsini Ağdamkənd kəndindən məcburi köçkün Şahmar Ələsgərov quyu qazarkən tapıb.



Şahmar Ələsgərov AZƏRTAC-a bildirib ki, çəkisi 1,5 kiloqram olan at fiquru torpağın 6 metr dərinliyində aşkarlanıb. At fiquru çıxarılan zaman bir neçə yerindən qırıldığı üçün lentlə bağlanıb. Sakinlər tərəfindən ərazidən indiyədək müxtəlif qablar və sikkələr də tapılıb.

Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun Qarabağ arxeoloji ekspedisiyasının rəisi, professor Hidayət Cəfərovun dediyinə görə, Sarıçoban kurqanında hələ 1986-cı ildə arxeoloji tədqiqatlar aparılıb. Sarıçoban abidəsi Tərtər rayonundakı Borsunlu və Bəyimsarov kurqanlarından sonra Azərbaycanda üçüncü tayfa başçısı kurqanıdır. Hündürlüyü 5 metr, diametri 45-50 metr olan konusvarı torpaq kurqan qeyri-adi quruluşu ilə indiyədək məlum olan abidələrdən tamamilə fərqlənir. Kameranın mərkəzi hissəsində, tunc lövhələrlə bəzədilmiş taxt üzərində tayfa başçısı dəfn olunub. Qərb və şimal kameralarında isə onun silahdaşıyanı və şəxsi mühafizəçisi bükülü vəziyyətdə basdırılıb. Tayfa başçısının ətrafında və başqa kameralarda 16 at skeletinin qalıqları aşkar edilib ki, onlardan yeddisi cilovlanmış halda qalıb.

Sarıçoban kurqanından xeyli maddi mədəniyyət nümunələri - 100-dən artıq ox ucu, onlarla bəzək nümunələri, xəncər, qılınc, nizə ucu və sair aşkar edilib. Burada tapılan müxtəlif tipli at cilovları da maraq doğurur. Ön Asiyada eradan əvvəl II minilliyin sonlarında geniş yayılmış at əsləhəsi tipinə aid olan bu cilovlar mükəmməlliyi ilə fərqlənir. Cilovlar qantarğalıdır. Dörd at başı fiquru ilə bəzədilmiş bir cilov xüsusilə seçilir. Atların boynu nazik, uzun, kiçik qulaqları dikdir. Bu xüsusiyyətlər yalnız təmizqanlı atlara məxsus olur. Bu baxımdan Sarıçoban atlarının diqqətlə araşdırılması Qarabağ atlarının tarixi mənşəyini də aydınlaşdırmağa yeni imkanlar aça bilər.

Aşkar edilən əşyalar Ağdam Tarix-Diyarşünaslıq Muzeyinə təhvil verilib. Muzeyin direktoru Ülvi Qədirov bildirib ki, 1962-ci ildə yaradılmış və 2500-dən artıq eksponatın sərgiləndiyi Ağdam Tarix-Diyarşünaslıq Muzeyi Ağdam şəhərinin 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğalı zamanı məhv edilib. 2001-ci ildə yerli əhalinin köməyi ilə rayonun işğal edilməmiş ərazilərindən yenidən toplanan, bərpa edilən, həmçinin arxeoloji tədqiqatlar nəticəsində tapılan maddi-mədəniyyət nümunələrinin hesabına muzey yenidən fəaliyyətə başlayıb. Hazırda Qaradağlı kənd Mədəniyyət Evinin binasında fəaliyyət göstərən muzeydə 1200-dən artıq eksponat sərgilənir. Yeni aşkar edilən at fiquru da muzeydə öz yerini tapacaq və ziyarətçilərin marağına səbəb olacaq.

# Bakıda III Almaniya-Azərbaycan Radioloji və Neyroradioloji Simpoziumu keçirilib





Martın 15-16-da Bakıda Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Milli Onkologiya Mərkəzinin dəstəyi ilə III Almaniya-Azərbaycan Radioloji və Neyroradioloji Simpoziumu keçirilib. Simpoziumun həmsədrləri Milli Onkologiya Mərkəzinin baş direktoru, akademik Cəmil Əliyev və Almaniyanın Aaxen Universitet klinikasının eksperimental invaziv neyroradiologiya bölməsinin rəhbəri, tibb elmləri doktoru, professor Anastasios Mpotsarisdir.

Martın 16-da simpozium öz işini Milli Onkologiya Mərkəzində davam etdirib.

AZƏRTAC xəbər verir ki, tədbirin əsas mövzusu onkoloji xəstəliklərin müasir diaqnostikası, şüa və neyroradioloji müalicə metodları və ən yeni müalicə texnologiyalarıdır. Simpozim Azərbaycanın dinamik inkişaf etməkdə olan səhiyyə sisteminə sanballı töhfə vermək, milli radiologiyanın gələcək inkişafı barədə beynəlxalq elmi müəssisələri məlumatlandırmaq və bu sahədə aparıcı ölkələrin təcrübəsini bölüşmək məqsədilə keçirilir. Tədbirdə Almaniya modeli nümunəsində müasir serebrovaskulyar xəstəliklər mərkəzinin təşkili məsələləri müzakirə edilib.

Milli Onkologiya Mərkəzinin baş direktorunun birinci müavini, professor Əziz Əliyev tədbirdə çıxış edib. O, Milli Onkologiya Mərkəzinin baş direktoru, akademik Cəmil Əliyevin adından simpozium iştirakçılarını salamlayaraq Almaniya-Azərbaycan simpoziumunun məhz bu müəssisədə keçirilməsinə görə məmnunluğunu bildirib. Professor Ə.Əliyev deyib: "Almaniyanın aparıcı tibbi mərkəzləri ilə sıx münasibətlərimiz yaranıb, buna görə də belə bir nüfuzlu tədbirin Milli Onkologiya Mərkəzində keçirilməsi bizim üçün çox vacibdir".

Baş direktorun birinci müavini Milli Onkologiya Mərkəzinin uğurları barədə məlumat verərək diqqətə çatdırıb ki, Azərbaycan Prezidentinin diqqəti və qayğısı sayəsində bu mərkəz ən müasir tibbi texnika ilə, o cümlədən mobil diaqnostik komplekslə təchiz olunub. Əziz Əliyev vurğulayıb: "Onkoloji xəstələrin şiş əleyhinə preparatlarla təmin olunması problemi aradan qaldırılıb. Zəngin maddi-texniki bazaya və güclü kadr potensialına malik olan Milli Onkologiya Mərkəzi dünyanın aparıcı mərkəzləri ilə müqayisə edilə bilər. Mərkəzin əməkdaşları yüksəkkeyfiyyətli onkoloji xidmətlər göstərir, bədxassəli şişlərin erkən diaqnostikasını həyata keçirir, bu cür xəstələrin müasir cərrahi, şüa və dərman müalicəsini təmin edir, mövcud müalicə metodlarının daha da təkmilləşdirilməsi məqsədilə genişmiqyaslı elmi araşdırmalar aparırlar. Məsələn, əvvəllər bütün onkoloji əməliyyatlar bir binada aparılırdısa, 2009-cu ildə Milli Onkologiya Mərkəzinin cərrahiyyə korpusu tikiləndən sonra bu sahədə irəliləyiş göz qabağındadır. Bundan əlavə, 2012-ci ilin mart ayında Uşaq Onkologiya Klinikasının açılışı olub. Milli Onkologiya Mərkəzinin regionda ilk uşaq klinikasının yaradılması Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın böyük xidmətidir".

3.1. Quliyev Daşqın Cabbar oğlu, 1977-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikası Məhkəməsinin 2001-ci il 27 avqust tarixli hökmü ilə məhkum edilmişdir.

3.2. Sədrəddinov Kamil Camal oğlu, 1956-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikası Məhkəməsinin 2007-ci il 16 yanvar tarixli hökmü ilə məhkum edilmişdir.

4. Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2011-ci il 25 oktyabr tarixli hökmü ilə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş və cəzasının çəkilməsi təxirə salınmış, 1989-cu ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı Məmmədova Elgül Elxan qızı cəzadan azad edilsin.

5. Azadlıqdan məhrumetmə cəzasına şərti olaraq məhkum edilmiş aşağıdakı şəxslər cəzadan azad edilsinlər:

5.1. Abbasov Gündüz Məhərrəm oğlu, 1997-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2017-ci il 19 iyul tarixli hökmü ilə məhkum edilmişdir.

5.2. Abdullayev Azad Zadil oğlu, 1973-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2018-ci il 23 fevral tarixli hökmü ilə məhkum edilmişdir.

5.3. Kuzmın Mıkalaı Nikolayeviç, 1947-ci ildə anadan olmuş, Belarus Respublikasının vətəndaşı, Şabran Rayon Məhkəməsinin 2018-ci il 10 dekabr tarixli hökmü ilə məhkum edilmişdir.

5.4. Qasımova Hüsniyyə Qərib qızı, 1987-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin 2018-ci il 9 fevral tarixli hökmü ilə məhkum edilmişdir.

5.5. Mehdiyeva Südabə Gülməmməd qızı, 1968-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2018-ci il 22 noyabr tarixli hökmü ilə məhkum edilmişdir.

5.6. Mikayılova Aybəniz Abdal qızı, 1973-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Tovuz Rayon Məhkəməsinin 2018-ci il 31 avqust tarixli hökmü ilə məhkum edilmişdir.

5.7. Nəzərova Minarə Nurəddin qızı, 1982-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin 2018-ci il 6 sentyabr tarixli hökmü ilə məhkum edilmişdir.

5.8. Rzayev Anar Ramiz oğlu, 1984-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin 2018-ci il 18 may tarixli hökmü ilə məhkum edilmişdir.

5.9. Rzayeva Solmaz Nəriman qızı, 1953-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2018-ci il 23 may tarixli hökmü ilə məhkum edilmişdir.

5.10. Salmanzadə Süleyman Hafiz oğlu, 1989-cu ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bərdə Rayon Məhkəməsinin 2015-ci il 15 oktyabr tarixli hökmü ilə məhkum edilmişdir.

5.11. Tahirli Röyal İsmayıl oğlu, 1993-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Rayon Məhkəməsinin 2018-ci il 31 yanvar tarixli hökmü ilə məhkum edilmişdir.

6. Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin 2015-ci il 14 iyul tarixli hökmü ilə azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş, 1968-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı Xasməmmədov Qurban İsa oğlu cəzasının çəkilməmiş hissəsindən azad edilsin.

7. İslah işləri cəzasına məhkum edilmiş aşağıdakı şəxslər cəzanın çəkilməmiş hissəsindən azad edilsinlər:

7.1. Əliyeva Ofelya Müzəfər qızı, 1976-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Abşeron Rayon Məhkəməsinin 2018-ci il 17 aprel tarixli hökmü ilə məhkum edilmişdir.

7.2. Hüseynov Murad Əli oğlu, 1981-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Cəlilabad Rayon Məhkəməsinin 2017-ci il 11 aprel tarixli hökmü ilə məhkum edilmişdir.

7.3. Şükür Murad Akif oğlu, 1998-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin 2017-ci il 6 oktyabr tarixli hökmü ilə məhkum edilmişdir.

8. Yevlax Rayon Məhkəməsinin 2017-ci il 4 oktyabr tarixli hökmü ilə ictimai işlər cəzasına məhkum edilmiş, 1980-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı Qənbərov Amil Vəliş oğlu cəzadan azad edilsin.

9. Cərimə cəzasına məhkum edilmiş aşağıdakı şəxslər cəzadan azad edilsinlər:

9.1. Abbasov Elxan Arif oğlu, 1998-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə şəhəri Kəpəz Rayon Məhkəməsinin 2016-cı il 5 sentyabr tarixli hökmü ilə məhkum edilmişdir.

9.2. Ağayeva Kəmalə Novruz qızı, 1964-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Masallı Rayon Məhkəməsinin 2017-ci il 2 may tarixli hökmü ilə məhkum edilmişdir.

9.3. Cavadzadə Nizam Surət oğlu, 1990-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Səbail Rayon Məhkəməsinin 2018-ci il 7 mart tarixli hökmü ilə məhkum edilmişdir.

9.4. Hacıyev Hacı Möysüm oğlu, 1971-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Füzuli Rayon Məhkəməsinin 2017-ci il 10 yanvar tarixli hökmü ilə məhkum edilmişdir.

9.5. Hüseyinov Nicad Qurban oğlu, 1985-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bərdə Rayon Məhkəməsinin 2017-ci il 14 iyul tarixli hökmü ilə məhkum edilmişdir.

9.6. İlyasov Cəsarət Bəhmən oğlu, 1984-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Abşeron Rayon Məhkəməsinin 2016-cı il 13 iyun tarixli hökmü ilə məhkum edilmişdir.

9.7. İsmayılov Namid Kamil oğlu, 1962-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Neftçala Rayon Məhkəməsinin 2013-cü il 25 sentyabr tarixli hökmü ilə məhkum edilmişdir.

9.8. Kazımzadə Elşən Qiyas oğlu, 1975-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin 2018-ci il 29 mart tarixli hökmü ilə məhkum edilmişdir.

9.9. Mamedov Elgün Şöhrət oğlu, 1991-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Ağcabədi Rayon Məhkəməsinin 2017-ci il 5 iyul tarixli hökmü ilə məhkum edilmişdir.

9.10. Səfərli Rahib Umudvar oğlu, 1990-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Beyləqan Rayon Məhkəməsinin 2011-ci il 10 avqust tarixli hökmü ilə məhkum edilmişdir.

9.11. Sultanov Zahir Paşa oğlu, 1972-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Hərbi Məhkəməsinin 2018-ci il 29 may tarixli hökmü ilə məhkum edilmişdir.

9.12. Süleymanova Dilbər Mehman qızı, 1973-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin 2014-cü il 4 avqust tarixli hökmü ilə məhkum edilmişdir.

10. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 mart 2019-cu il*



# Sağlıq olsun

# Zəhərli çiçək

**Həkim məsləhəti**



**Yoluxucu xəstəlik növlərindən biri suçiçəyidir. Bu xəstəliyi herpetik viruslardan biri törədir. Praktik olaraq bütün insanlar uşaqlıqda bu infeksiyaya yoluxurlar.**

Həkim-pediatr Günay Rəsulova deyir ki, xəstəliyin əvvəlində uşağın hərarəti qalxır, onun ümumi halı, iştahası və yuxusu pozulur. Sonra səpki əmələ gəlir. Səpki əvvəlcə xırda qırmızı ləkə şəklində olur. Bir neçə saatdan sonra qabarcığa çevrilir. Xəstəlik, adətən, yüngül keçir. İmmuniteti zəif olan, həmçinin digər ağır xəstəliklər nəticəsində zəifləmiş uşaqlarda isə ağır formalarda keçə bilər: "Səpkilər zamanı güclü qaşınma müşahidə edilir, lakin uşaqları səpkiləri qaşımaqdan çəkindirin. Əgər səpkilər qaşınıb qoparılsa, onların yerində çapıqlar qalacaq. Bədəndə olan qırmızı sulu ləkələri yaşıl brilyant abısı ("zelyonka") ilə rəngləyib dəri səthini təmiz saxlamaq və vitaminlər qəbul etmək lazımdır".

### Təkrar xəstələnmə niyə olmur?

Xəstəlikdən sonra yaranan immunitet çox yüksək olur və təkrar xəstələnmə halı baş vermir, - deyən pediatr bildirir ki, yoluxmuş uşaqların müalicəsi, adətən, ev şəraitində aparılır. Uşaqlara vitaminlərlə zənginləşdirilmiş pəhriz rejimi tətbiq edilir. Onların yataq otağının havasını tez-tez dəyişmək və hər gün nəm əsgi ilə təmizləmə işləri aparmaq lazımdır. Dərideki səpkilərə yaşıl birilyant abısı və ya kalium-permanqanat məhlulu ("marqantsovka") sürtmək lazımdır. Bu, dəridəki qaşınmanı azaltmağa, qabarcıqların irinləməsinin qarşısını almağa, onların tez qurumasına kömək edir.

### Peyvəndi var, amma...

Həkim diqqətə çatdırır ki, müalicə zamanı antibiotiklərdən istifadə edilməsinə, yalnız çox nadir hallarda baş verən fəsadlar zamanı icazə verilir. Sağalma 10 gündən tez olmur. Sağalmadan sonra 1,5-2 həftə ərzində uşağın immun sistemi bir qədər zəiflədiyinə görə onu bir müddət qorumaq üçün (soyuqdəymədən və s.), uşaq bağçasına və ya məktəbə getməsi məsləhət deyil.

Suçiçəyindən qorunmanın bir üsulu isə çiçək peyvəndi etdirməkdir.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

## Bilirik?

- İnsan bədənindəki piyləri ən yaxşı əritmək qabiliyyətinə malik hərəkətlər 20 dəqiqəlik fasilələrlə edilən idman hərəkətləridir;
- Fəal şəkildə işləyən beyin insanın orqanizminə daxil olan qıdalı maddələrin təqribən 25 faizini "yeyir". Məhz buna görə əqli fəaliyyətlə məşğul olduqdan bir qədər sonra insan güclü aclıq hiss edir;
- Uşaqlar dunyaya diz qapağı olmadan gəlirlər;
- Dünyada hər 10 insandan biri solaxaydır;
- Mavigözlü insanlar qaranlıqda daha yaxşı görürlər;
- Mədənizin daxili qabığı hər üç gündən bir yenilənir;
- İnsan sutka ərzində təxminən 23 min dəfə nəfəs alıb verir;
- Körpənin doğulduğu an onun başının çəkisi ümumi çəkinin dörddəbirini təşkil edir:
- Şəhadət barmağı insan əlinin ən hissiyyatlı barmağıdır;
- İnsan beyninin normal işləməsi üçün kifayət qədər qlükoza lazımdır. Orqanizmdə qlükozanın miqdarı kəskin azaldıqda insan hətta komaya düşə bilər;
- İnsan aclıqdan əvvəl yuxusuzluqdan ölür.

**Xalq təbabəti:**

# Dirilik suyu:

## *Hər gün bir stəkan içsəniz...*

**Tərkibində 100-dən artıq vitamin olan səməni suyu qanı yeniləyir, toksinləri təmizləyir, dişləri və immuniteti gücləndirir, ürək xəstəliklərinin müalicəsində istifadə edilir. Gənclik iksiri kimi tanınan səməni suyu xərçəngi belə sağaltmağa qadirdir.**

Səməni suyu tərkibindəki zəngin qidalandırıcı maddələr sayəsində bədəni təbii enerji ilə təmin edir. Eyni zamanda zülalları əmələ gətirən amin turşuları üçün yaxşı mənbədir.

2-4 xörək qaşığı səməni suyu ilə sevdiyiniz təzə meyvə və ya tərəvəz suyunu qarışdırıb, gün ərzində daha enerjili olmaq üçün hər gün içə bilərsiniz. İmmun sistemini, bədəni bir çox mikrob və infeksiyalardan qoruyur. Eyni zamanda buğda cücərtisinin suyu orqanizm hüceyrələrini yeniləyir, qaraciyəri toksinlərdən təmizləyir. Digər tərəfdən, bədəndəki qırmızı qan hüceyrələrini artırır.

Tərkibindəki A və C vitamini sayəsində qrip və soyuqdəymədən qoruyur, ciddi xəstəliklərə qarşı mübarizə aparır. Buğdada olan selen qalxanabənzər vəzilərinin işini qaydaya salır. Bu faydalı iksir qələvi və qidalandırıcı maddə baxımdan da zəngin olduğundan pəhriz saxlayan insanlar üçün xüsusilə faydalıdır.



### Xərçəng hüceyrələrinin düşməni

Kaliumla zəngin olan buğda cücərtisi suyu iştahanı və yemək istəyini azaldır. Eyni zamanda metabolizmini sürətləndirir. Səhərlər acqarına bu sudan bir stəkan içsəniz, gün ərzində həddən artıq yemək istəyinin qarşısını ala bilərsiniz.

Tərkibindəki xlorofil sayəsində damar sərtliyi və yüksək qan təzyiqinin müalicəsində mühüm rol oynayır. Bir çox fərqli xərçəng növləri ilə mübarizə aparır, qanda qələvilərin sayını artırır, bu da o deməkdir ki, qələvilər olduğu yerdə xərçəng hüceyrələrinin yaranması ehtimalından söhbət gedə bilməz.

Hazırlanma qaydası olduqca sadədir. Səməninin yaşıl hissəsi əvvəlcə mətbəx robotundan daha sonra tənzifdən keçirilir və təzə halda içilir.

**Düzgün qidalanma**

# Nə şiş yansın, nə kabab



**Azərbaycanın milli xörəyi kabab ləzzəti ilə çox məşhurdur. Amma son zamanlar diyetoloqlar yüksək temperaturda bişən bu cür ətin insan orqanizminə zərərli olması barədə xəbərdarlıq edirlər.**

İddialara görə, yüksək temperaturda ət bişirmək heterosiklik aminlər deyilən xərçəngə səbəb olan birləşmələri yarada bilir. Həmçinin kömürləşmiş ətin tez-tez istehlakı prostat, pankreas və mədə xərçənginə tutulma riskini artırır.

Bununla bağlı diyetoloq Tutu Zeynalova bildirir ki, kabab bişirilərkən ocaqla ətin arasındaki məsafəni düzgün tənzimləmək lazımdır: "Bu məsafə 15 santimetrdən az olmamalıdır. Narahatlıq yaradan odur ki, kabab bişərkən ətin yağı əriyib közə tökülür və bu zaman bir az oksidləşmə gedir. Bu qaydaya əməl olunmasa, xərçəngə, yaxud başqa xəstəliklərə səbəb olacaq heç bir problem yaranmaz".

Diyetoloqun sözlərinə görə, hər kəs kababı çəkisinə, boyuna, yaşına uyğun olaraq yeməlidir: "Qadınla kişinin yemək ölçüsü fərqlidir. Məsələn, 120 kilo bədənlə 80 kilo bədənin enerji ehtiyacı fərqli olduğu üçün onlarda bu porsiya dəyişir. Adətən əlimizin ölçüsü boyda deyirik, yəni bir şəxs 200 qramı aşmamaq şərti ilə kabab yeyə bilər. Amma burada da balansı gözləmək lazımdır. Əgər günorta kabab yeyilibsə, axşama mütləq tərəvəzli xörəyin yeyilməsi məsləhətdir. Yaxud axşam kabab yeyəcəksinizsə, gündüz daha yüngül yeməklə qidalanın ki, balanslı qidalanmış olasınız. Mütləq kababın yanında yaşıl salat olmalıdır, bu həm də oksidləşmənin təsirini aradan qaldırır. Əgər qırmızı ətdən danışırıqsa, bu ətin mənimsənilməsi üçün yaxşı olar ki, onun üzərinə bir az limon sıxasınız. Çünki bu, dəmirin mənimsənilməsini yaxşılaşdıran yeganə vasitədir".

### Yuxa çörək, halqavarı soğan, göyərti...

Yaxşı kabab hazırlamaq üçün ətin təzə və dondurulmamış olmasına diqqət etmək lazımdır.

Yaxşı kabab əsasən malın, yaxud qoyunun bud və bel hissələrindən olur. Məsələn, 2 kilo ət götürülür, səliqə ilə tikələrə ayrılır. Ət həddindən artıq yağlı olmamalıdır. Əks təqdirdə yağ çox damcılayır və kabab tamamilə quru qalır. Ona duz, zövqə görə istiot vurulur. Ət tikələri arasında 10 mm məsafə qoymaqla şişlərə çəkilir və manqala düzülür. Ətin ocağa tərəf olan hissəsi bişdikcə şişlər fırladılır. Amma bunu da elə etmək lazımdır ki, kabab nə çox yansın, nə də az bişsin. Belədə kabab yumşaq alınır. Onu yuxa, halqavarı doğranmış soğan və göyərti ilə yeyəndə daha ləzzətli olur.

**Şəfalı bitkilər**

# Sehrli buynuz



**Ən faydalı bitkilərdən biri keçibuynuzu ağacıdır. Keçibuynuzunun yetişmiş meyvələrinin toxumları uzun müddət içərisinə su keçmədiyindən ağırlığını dəyişməyən nadir toxumlardır.**

Toxumlarının eyni forma və çəkidə olması onun lap qədim zamanlardan qiymətli daşları və metalları çəkmək üçün kiçik ölçülü çəki daşı əvəzi istifadə edilməsinə səbəb olub. O vaxtdan indiyə qədər qiymətli daşların və metalların ölçülməsində istifadə edilən çəki vahidi karat - 0,189 qram 1 ədəd keçibuynuzu toxumunun ağırlığına bərabərdir.

Keçibuynuzu ağacının qətranının əsrlər boyu torpağın dərin qatlarında qalmasından zərgərlikdə və tibdə istifadə edilən kəhraba əmələ gəlir.

Keçibuynuzunun ən vacib xüsusiyyəti nəfəs darlığına qarşı çox təsirli olmasıdır. Bu bitkinin tərkibindəki qallium turşusu insan sağlamlığına müsbət təsir edən çoxtərəfli xüsusiyyətləri olan maddədir.

Şəfalı bitkidən allergiyaya, astmaya, bronxitə, xərçəngə, uşaq iflicinə qarşı, qaraciyəri toksindən təmizləyici, immunitet sistemini gücləndirici, antiseptik, bronx genişlədici kimi istifadə edilir.

Keçibuynuzundan hazırlanan bəkməzin də faydası çoxdur. Tərkibində təbii şəkər, sink, A, B, B2, B3, D vitaminləri var. Keçibuynuzu bəkməzinin faydasını görmək üçün səhər və axşam yeməyi zamanı bir xörək qaşığı qəbul etmək lazımdır. 15-20 gün ərzində qəbul edilən bəkməz orqanizmə çox böyük müalicəvi təsir göstərir:

- nəfəs darlığını aradan qaldırır;
- astma xəstəliyinin sağalmasına yardım edir;
- allergiya boğulmalarını aradan qaldırır;
- yüksək enerji qaynağıdır;
- sümükləri möhkəmləndirir;
- qanazlığını aradan qaldırır;
- cinsi zəifliyi aradan qaldırır;
- 90 faiz ağciyər xərçənginin qarşısını almaq qabiliyyətinə malikdir;
- ürəkdöyünməni aradan qaldırır, ürək xəstəliklərində yardımçı olur.

**Dünya olduğu kimi**

# Kəşf: İnternet necə yarandı?






**İnsanlar heç vaxt əldə etdikləri ilə kifayətlənmir, daim həyatlarını asanlaşdıracaq axtarışlara baş vururlar. Bu da zaman-zaman yeni kəşfləri ortaya çıxarır. Həmin kəşflərdən biri də internetdir. Bu gün həyatımızın ayrılmaz bir parçasına çevrilən internetin çox qısa tarixi var.**

İnternetlə bağlı ilk fikir Leonard Kleinroks adlı amerikalıya məxsusdur. O, 1961-ci il 31 may tarixində "Information Flow in Large Communication Nets" adlı məqaləsində internetlə bağlı fikirlərini bildirmişdi. 1961-1962-ci illərdə ABŞ Massaçusets Texnologiya İnstitutunun əməkdaşları S. Liklayder və L. Kleykrok uzaq məsafədən kompüter əlaqəsinin yaradılması və paket kommutasiya ideyasının nəzəriyyəsini irəli sürdülər. Onların bu nəzəriyyəsi daha sonra ARPANET olaraq ortaya çıxdı.

1969-cu ilin yanvar ayının 2-də ARPANET adlanan şəbəkə vasitəsilə Los-Anceles, Santa-Barbara və Yuta ştatının universitetləri və Stenford Elmi-Tədqiqat İnstitutu arasında informasiya mübadiləsi təmin edildi. Məqsəd hərbi qərargahlardakı kompüterlər arasında informasiya mübadiləsi yaratmaq idi.

1969-cu il 29 oktyabr tarixi, saat 10:30-da isə ilk dəfə internet vasitəsilə mesaj göndərilmişdi. O zaman ancaq hərbi məqsədlə istifadə edilən internetin bütün insanların istifadə edə biləcəyi bir hala gəlməsində Vinton Cerf adlı riyaziyyat mühəndisinin xüsusi rolu oldu.

Vinton Cerf ötən əsrin 70-ci illərində universiteti yeni bitirmiş riyaziyyat mühəndisi idi. Gənclik illərində o, anadangəlmə eşitmə qüsurlu Karinneyə aşiq olur. Karinne, eşitmədiyi üçün kimsəylə ünsiyyət qura bilmirdi. Kaliforniya Universitetində kompüterlər arası məlumat transferiylə məşğul olan Cerfin isə tək istəyi Karinneni xoşbəxt etmək idi. İnternetsə yalnız hərbi məqsədlə istifadə edilən bir sistem idi. Lakin Cerf kimi insanların sayəsində internet qısa müddətdə mülki sahədə də istifadə olunmağa başladı. Beləliklə, Cerf interneti Karinnenin də istifadə edə biləcəyi bugünkü halına gətirdi.

"Bu gün arvadım artıq universitetdə oxuyan oğlumuzla belə internet yoluyla danışa bilir. Kim bilir, bəlkə də interneti arvadımı xoşbəxt edə bilmək üçün icad etmişəm", - deyə Cerf bildirib.

1980-ci illərin axırlarında isə internetlə əlaqə yaratmaq istəyənlər modemdən istifadə etməyə başladılar.

*Fərizə ƏHMƏDOVA, "Azərbaycan"*

## Bilirsinizmi...



- Virgina Volf kitablarının çoxunu ayaqüstə yazıb.
- Yeni Zenlandiya dünyadakı hər iqlimin yaşandığı tək ölkədir.
- Yalan danışanda insanın burnu isinir və buna "Pinokyo" effekti deyirlər.
- Göyərçinlər insan simasını xatırlaya bilən yeganə quş növüdür. Sizi yenidən gördükdə yadına düşə bilərsiniz.
- Yerfıstığı dinamit yaradılmasında istifadə edilən vəsaitlərdən biridir.
- Araşdırmalar göstərir ki, xoşbəxt insanlar soyuqdəymə halı ilə az qarşılaşır.
- Bir musiqi aləti ifa etmək İQ səviyyənizi ən az 5 bal artırır.
- Fransızlar Kirazquşu adlı balaca və gözəl səsli bir quşdan hazırlanmış yeməyi yeyərkən başlarına dəsmal atırlar. Bəziləri bunu yeməyin qoxusu, bəziləri isə "belə bir gözəl canlını yeyərkən Allahdan gizlənmək lazımdır" kimi deyimlə əlaqələndirirlər.
- Yalnız dovşan və tutuquşular başlarını çevirmədən arxalarını görürlər.
- Zürafələr təxminən 53 sm-lik dilləri ilə öz qulaqlarını təmizləyə bilirlər.
- Dəvəquşularının gözləri beyinlərindən böyükdür.
- İnsanlar 300 sümüklə doğulsa da, yetkinlik yaşına çatanda bunların sayı 206-a düşür.

# Məkan: İlk yeraltı dünya





**Müasir şəhərləri metrosuz təsəvvür etmək çox çətindir. Yerin altına dəmir yolu inşa etməyi düşünən ilk insan Çarlz Pösondu. XIX əsrin 40-cı illərində o, bu fikirlə dəfələrlə çıxış etsə də, ətrafdakılar onu dinləmir və bunun imkansız bir şey olduğunu düşünürdülər. Nəhayət, ilk metropoliten yaradıldı. Bəs harada?**

Dünyada ilk metro xətti Londonda yaradılıb. XIX əsrin ortalarında İngiltərənin paytaxtında əhalinin sayı iki milyon insana bərabər idi və Londonun bir rayonundan digərinə getmək əsl problemə çevrilmişdi.

1855-ci ildə şəhərdə yeraltı dəmir yollarının çəkilməsi ilə bağlı qərar qəbul edildi. Dəmir yollarının çəkilməsi məsələsi ilə isə "Metropolitan Railway" şirkəti məşğul olurdu. Lakin şəhərin tam ortasında çuxur qazıb içində dəmir yolu inşa etmək ideyası hamıya yuxu kimi gəlirdi. Bu, böyük bir rezonans doğurmuşdu. Çoxları bu layihənin bir işə yaramayacağını düşünsə də, sonradan yanıldıqlarını anladılar.

İlk metro xəttinin uzunluğu 3600 metrə bərabər idi və özündə 7 stansiyasını birləşdirirdi. Açılışı isə 10 yanvar 1863-cü ildə baş tutur. Üç il davam edən inşaatdan sonra nəhayət bu iş tamamlandı.

Londonun ilk metro xəttinin açılışını Böyük Britaniyanın gələcək kralı, Uels şahzadəsi VII Eduard edir. Həmin gün metronun ilk sərnişini də məhz o olur. Metro işə başladığı ilk gün 30 min sərnişin ondan istifadə edir. Fəaliyyət göstərdiyi 1 ildə isə yeraltı nəqliyyat vasitəsindən 9 milyon, növbəti il isə 12 milyon insan bundan bəhrələnir.

Zamanla metro lokomotivləri elektriklə işləməyə başlayır. Lakin buna 40 il lazım gəlir. London metrosu tam olaraq 1905-ci ildə elektrikləşdirilir. Gündəlik olaraq bu nəqliyyat növündən 3 milyon insan istifadə edir ki, bu da ildə 1 milyard sərnişin deməkdir.

XX əsrin əvvəllərində Budapeşt, Berlin, Paris və Nyu York kimi şəhərlərdə də metro sistemləri quruldu. Bu gün 55 ölkədə 160-dan çox şəhərdə metro fəaliyyət göstərir.

## Süni intellekt: İşdən gec çıxanlara robot nəzarət edəcək



Yaponiyada iş saatlarından sonra da qalıb işləmək ənənəsi var. Ölkənin yeni qanununa görə, əlavə iş saatları ayda 100 saatdan artıq ola bilməz. Son zamanlar uzun zaman işləyənlər arasında ölüm halları baş verib. Ona görə şirkətlər bu ənənəni pozmaq üçün əllərindən gələni əsirgəmirlər. Odur ki, iş saatlarından əlavə qalıb işləmək ənənəsinə son qoymaq üçün bundan sonra uçan robotlardan istifadə ediləcək. Robotlar dron kamera ilə təchiz olunub və işdən sonra qalıb işləyənləri görüntüləyəcək. Həm də işçilərə göz hərəkətini izləyən eynəklər veriləcək. Bu eynəklər xüsusi proqramla yüklənib və proqram eynək sahibinin yorulduğunu müəyyən edən kimi ona fasilə verməyi təklif edir. Ümid edilir ki, yeni texnologiya Yaponiyada dərin kök salmış ənənəni aradan qaldırmağa kömək edəcək.

# Qalaktika: Ay olmasa, nə olardı?



**Heç düşünmüsünüzmü ki, Ay olmasaydı, nələr olardı? Bunu düşünmək yəqin bir çoxunun ağlına gəlməyib.**

Araşdırmalara görə, Ay olmasaydı, gündüzün uzunluğu təxminən 8 saat olacaqdı. Yer kürəsi öz xətti ətrafında bu gündən fərqli olaraq təqribən 3 dəfə daha sürətli dönəcəkdi.

Ayın olmaması səbəbi ilə günlər yenə uzanacaqdı, amma bu uzanma prosesi indikinə görə daha yavaş gedəcəkdi.

Ay olmasaydı, yer səthində şərq, qərb istiqamətli küləklər daha çox şiddətli əsər, istilik dəyişimi isə daha sürətli olardı.

Ayın Yer kürəsi üzərində başqa bir təsiri də odur ki, o, Günəşdən gələn işığı əks etdirərək Yerin işıqlanmasına və müəyyən qədər isinməsinə təsir edir. Buna görə, əgər Ay olmasaydı, gecələr daha qaranlıq və yer bugünkündən daha soyuq olardı.

Həm də Ay kosmosda gəzən meteoritlərə qarşı "qalxan" rolunu oynayır. Əgər Ay olmasaydı, Yer səthinə daha çox meteorit düşə bilərdi.

# Möcüzəvi təbiət: Yaşayan ən böyük canlı



**Kaliforniya bölgəsinin Sekoya ağacı təxminən 40 mərtəbəli bir bina yüksəkliyindədir və buna görə dünyanın ən uzun ağaclarından biri sayılır. Uzunluğu 110 metrdən daha yüksək olur.**

Dünyanın yaşayan ən böyük canlısı sayılan Sekoya ağacının biri ilə 50 ədəd altıotaqlı ev inşa etmək olar. 50 sm qalınlığındakı qabığına həmişə həşəratların sevmədiyi toz dərman vurulduğundan qabıq korlanmır. Qabığının lifli quruluşu sayəsində yanğından qorunur.

# Qəribədir: Xoşbəxtlik hissi yaradan vərdişimiz - Təəccüblənəcəksiniz!

**"Niyə qaşınırıq"- deyə düşünmüsünüzmü?**

**Araşdırmalar göstərir ki, gündə təxminən 100 dəfə qaşınırıq. Hətta deyilənə görə, əsnəmək kimi qaşınma da keçicidir. Qaşıdıqca dəri əlavə histamin ifraz edərək beyinə daha çox qaşıntı siqnalları göndərir.**

Məlumata görə, heyvanlar və ya bitkilərin səbəb olduğu qaşınmalar dəridə qalan toksinlərdən yaranır. 1997-ci ildə qaşıntının öz xüsusi sinir liflərinə malik olduğu aşkarlanıb. Qaşıntı eyni zamanda qan damarlarını genişləndirərək ağ qan hüceyrələri və plazmanın işğalçı toksinlərini yuyub aparmasını təmin edir. Buna görə də dəri qızarır və səpir.

Qaşıntı, beyində serotonin hormonu ifraz etdiyinə görə həzz yaradır. Alimlərə görə, rifah və xoşbəxtlik kimi hissləri yaradan nevro-ötürücü serotonin hormonudur. Bədəndə serotonin nə qədər çox olarsa, özünüzü bir o qədər xoşbəxt hiss edərsiniz. Elə buna görə də bəzən qaşımağı dayandırmaq istəmirik.

Tibbi tədqiqatçılar müəyyənləşdiriblər ki, davamlı qaşıntını qulaqardına vurmaq olmaz. Xroniki qaşıntı qaraciyər xəstəliyi və limfoma kimi problemlərin carçısı ola bilər.



# Novruz yarmarkasında qiymətlər bazardakından xeyli ucuzdur




Martın 16-da Nizami rayonunun Naxçıvanski küçəsi, 74 ünvanında (8-ci kilometr yarmarkası) kənd təsərrüfatı məhsullarının növbəti Novruz yarmarkası təşkil edilib.

Səhər saat 9.00-dan açılan yarmarkada respublikanın bir çox bölgələrindən gəlmiş fermerlər rayon sakinlərinə öz məhsullarını təklif ediblər.

Qeyd edək ki, məhsullar müxtəlif çeşiddə və bazar qiymətindən xeyli ucuzdur və alıcıları qane edir. Fermerlər də yarmarkanın təşkili və onlar üçün burada yaradılmış şəraitdən razılıq edirlər.

Hacıqabul rayonunun Ağacanlı kəndindən gəlmiş İlqar Süleymanov müştərilərə yumurta təklif edir. Həmsöhbətim deyir ki, yumurtanın qiyməti bazarla müqayisədə ucuz olduğundan alıcıları qane edir. Onun sözlərinə görə, axşama qədər satıb qurtaracaq.

Sakinlərə toyuq məhsulları təklif edən digər fermer - Kürdəmir sakini Roman İsmayılov da alış-verişdən razılığını bildirib.

R.İsmayılov deyib ki, rayonda böyük təsərrüfatı var və ailəsi ilə birgə toyuq yetişdirib satmaqla məşğuldur. Toyuğun ədədini 3,5 manata satdığını bildirən fermer müştərilərin bu məhsulu həvəslə aldığını söyləyib.

Hər iki fermer bu cür yarmarkaların təşkili və onlar üçün yaradılan şəraitə görə dövlət başçısına minnətdarlıqlarını ifadə ediblər.

Kənd təsərrüfatı nazirinin müavini Seyfəddin Talıbov səhər saatlarında yarmarkanı ziyarət edib, fermerlərlə görüşüb, məhsulların keyfiyyəti və qiymətləri ilə maraqlanıb.



Kənd Təsərrüfatı Nazirliyinin təşkil etdiyi yarmarka martın 16-dan 21-dək hər gün fəaliyyət göstərəcək.

* * *

Martın 16-da Bakı şəhəri, Səbail rayonu, Nizami küçəsi 154-də "Landmark" biznes mərkəzinin yanında kənd təsərrüfatı məhsullarının növbəti "Kənddən Şəhərə" Novruz yarmarkası təşkil edilib.

Səhər saat 8-də açılan yarmarkada respublikamızın müxtəlif bölgələrindən fermerlər, ailə təsərrüfatları əhaliyə geniş çeşiddə kənd təsərrüfatı məhsullarını bazar qiymətlərindən xeyli ucuz təklif edirlər. Fermerlər yarmarkanın təşkili və yaradılmış şəraitdən razıdırlar.

Dövlət Aqrar Ticarət Şirkətinin direktoru Leyla Məmmədova Novruz bayramı münasibətilə artıq 3-cü həftədir ki, yarmarkaların keçirildiyini deyib. Ötən həftələrdən fərqli olaraq martın 16-dan 21-dək Novruz yarmarkaları hər gün alıcılara xidmət göstərəcək. Yarmarkalarda müxtəlif regionlardan gətirilmiş meyvə-tərəvəz, ət və süd məhsullarının satışı həyata keçirilir. Yarmarkalarda satıcı və alıcıların rahatlığının təmin olunması üçün əlverişli ticarət mühiti yaradılıb. Fermerlər yarmarkalarda iştirak üçün heç bir ödəniş etmirlər. Əgər onların daşımaçılıqda hər hansı problem yaranarsa, Dövlət Aqrar Ticarət Şirkətinə müraciət edə bilərlər. Bu xidmət pulsuz şəkildə olacaq. Kənd Təsərrüfatı Nazirliyi və Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən təşkil edilmiş bu yarmarkalarda bayram günü əyləncə tədbirlərinin də təşkili nəzərdə tutulub. Qiymətlər çox münasib olduğu üçün alıcı fəallığı da yüksəkdir. Çalışırıq ki, hər dəfə yarmarkalara daha çox fermerləri və müxtəlif çeşiddə məhsulları cəlb edək.

Zaqatala rayonundan çərəz, meyvə quruları təklif edən fermer Nemət Süleymanlı ilk dəfə belə yarmarkada iştirak etdiyini və davamlı olaraq qatılacağını deyib. Təxminən 400 kiloqramadək məhsul gətirdiyini deyən fermer qeyd edib ki, bayram süfrəsində daha çox çərəzlər, quru meyvələr istifadə olunduğu üçün alıcılara bazar qiymətlərindən xeyli sərfəli qiymətə təklif edirik. Çalışırıq ki, hamının süfrəsində bu məhsullardan olsun.

Xaçmaz rayonunda dovşançılıq təsərrüfatı ilə məşğul olan fermer Etiram İsrafilov deyib ki, Novruz bayramına özəl yarmarkada alıcılara dovşan əti təklif edirik. Yarmarkaya 30 dovşan gətirmişəm. Alıcılarımız çoxdur. Dovşan ətinin faydalarından danışan fermer qeyd edib ki, dovşan əti əsasən şəkərli diabet, qastrit, qaraciyər və öd yolları, ürək, böyrək və yüksək təzyiq xəstələri üçün çox faydalıdır. Uşaqlar üçün də çox xeyirlidir. Tərkibində xolesterin sıfıra bərabərdir. Satışımızın məqsədi həm də insanları maarifləndirməkdir.

Yarmarkadakı qiymətlərdən və məhsullardan razılığını bildirən alıcı Xuraman Məmmədova bal almaq üçün yarmarkaya gəldiyini deyir: "Burada satılan məhsulların təmiz və keyfiyyətli olduğu, həm də evimə yaxın olduğu üçün bayram bazarlığımı buradan edirəm. Alqışa layiq təşəbbüsdür. Çox istərdim bu yarmarkalar daimi olsun, həm büdcəmizə qənaət etmiş olarıq, həm də orqanik məhsullardan yararlanarıq".

Xatırladaq ki, Prezident İlham Əliyevin tapşırığı ilə paytaxtın 14 ünvanında, ölkənin bütün şəhər və rayon mərkəzlərində Novruz yarmarkaları keçirilir.

* * *

Ötən illərdə olduğu kimi, bu il də Novruz bayramı ərəfəsində Ağcabədidə kənd təsərrüfatı məhsullarının satış-yarmarkaları keçirilir. Yarmarkalarda satışa çıxarılan məhsulların qiyməti bazar qiymətlərindən 15-20 faiz aşağıdır ki, bu da rayon əhalisində məmnunluq doğurur.

Ağcabədililər paytaxtdakı Novruz yarmarkalarına da kənd təsərrüfatı məhsulları göndərirlər.

***"Azərbaycan", AZƏRTAC***

# Nazir İnam Kərimov Qazaxda vətəndaşlarla görüşüb

Kənd təsərrüfatı naziri İnam Kərimov martın 16-da Qazax Dövlət Aqrar İnkişaf Mərkəzinin inzibati binasında Qazax, Gədəbəy, Şəmkir, Tovuz, Ağstafa, Daşkəsən və digər rayonlardan olan vətəndaşları qəbul edib, onların müraciətlərini dinləyib, ərizə və şikayətlərinə baxıb.

Daha sonra nazir İnam Kərimov yeni istifadəyə verilmiş Qazax Dövlət Aqrar İnkişaf Mərkəzinin inzibati binasında yaradılan şəraitlə tanış olub, fermerlərə informasiya məsləhət xidmətinin göstərilməsində iştirak edən aqrar inkişaf könüllülərinin bir qrupu ilə görüşüb.

Nazirliyin idarə və tabeli qurumlarının rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda 42 nəfərin müraciətinə baxılıb. Qəbula gələn vətəndaşların müraciəti əsasən fermerlərə güzəştli şərtlərlə kreditlərin verilməsi, kənd təsərrüfatı texnikası və təsərrüfat suyu ilə təminat, ixtisasa uyğun işlə təmin edilmə, kənd təsərrüfatı məhsullarının satışına kömək göstərilməsi və digər məsələlərlə bağlı olub. Nazir İnam Kərimov hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib, qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verib.

Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, qaldırılan bəzi məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb.

# Qafqaz Müsəlmanları İdarəsi Yeni Zelandiyada törədilmiş terror aktı ilə bağlı bəyanat yayıb

Qafqaz Müsəlmanları İdarəsi (QMİ) Yeni Zelandiyada törədilmiş terror aktı ilə bağlı bəyanat yayıb. Bu barədə AZƏRTAC-a QMİ-nin mətbuat xidmətindən məlumat verilib.

Bəyanatda deyilir: "Yeni Zelandiyanın Kraystçerç şəhərində məscidlərə silahlı hücum nəticəsində törədilmiş, çoxsaylı insan tələfatı ilə nəticələnmiş terror aktı haqqında xəbər biz, Azərbaycan dindarlarını hədsiz sarsıtdı. Bu dəhşətli terror aktı zamanı həlak olanların ailələrinə, yaxınlarına dərin hüznlə başsağlığı verir, terror qurbanlarına Allahdan rəhmət diləyir, yaralılara şəfa, bütün dünya müsəlmanlarına səbir və dəyanət arzulayırıq.

Müsəlmanlara qarşı törədilən qətllərin dini mənsubiyyətə görə həyata keçirilməsini islamofobiyanın bariz nümunəsi kimi qiymətləndirir, belə faşist mahiyyətli əməllərin qətiyyən yolverilməz olduğunu bəyan edirik. Hansı məqsəd və niyyət, hədəf və məramla həyata keçirilməsindən asılı olmayaraq insanların milli, dini, irqi mənsubiyyətə görə məhv edilməsi ksenofobiya təzahürü olmaqla insanlıq adına ləkə, mənəvi böhrandır.

Müqəddəs dəyər olan insan həyatına qəsd edən, Allaha xoş getməyən əməllər törədənlərin mənfur niyyətlərindən, bu amansız terror əməlindən son dərəcə hiddətlənir, terrorizmin bütün forma və təzahürlərini kəskin şəkildə qınayırıq. Biz dünya ictimaiyyətini belə barbarlıq hallarına, islamofobiya, dini ayrı-seçkiliyin müdhiş nümunəsinə sərt və birmənalı münasibət bildirməyə çağırırıq. Müsəlmanlar üçün müqəddəs olan Cümə gününü qara cüməyə çevirmək, Yaradana ibadət edən dinc insanları qətl etməyi qəhrəmanlıq kimi zənn edən islamofob bir düşüncə sahibinin iyrənc hərəkətləri insanlıq adına həqarətdir. Terrorun dini, terrorçunun dini mənsubiyyəti olmur. Lakin xəstə, zəhərlənmiş təfəkkürlə törədilmiş bu hadisə bütün bəşəriyyəti bu reallıq barədə bir daha və daha dərindən düşünməyə, daha səmərəli addımlar atmağa vadar edir".

Qeyd edilir ki, Yeni Zelandiyada törədilən bu amansız terror aktı əslində bütün dinlərə, bütövlükdə bəşəriyyətə qarşı yönəlmiş cinayətdir. Bu gün dünyamızın müxtəlif nöqtələrində dini və milli zəmində radikalizm və ekstremizmin tüğyan etməsi, dinlər, məzhəblər arasında toqquşmalar, terrorizm, separatizm, ksenofobiya, islamofobiya, antisemitizm, din adından sui-istifadə edərək insanların qətl edilməsi kimi çox təhlükəli təzahürlər yaşandığı bir dövrdə bu təhdidlərdən bəşər ailəsi yalnız səylərini birləşdirməklə, müxtəlif dinlər və mədəniyyətlər arasında əməkdaşlıq sayəsində xilas ola bilər. Belə faciəli hadisələr, müqəddəs məkanlarda - məsciddə, kilsədə, sinaqoqda törədilən qeyri-insani aktlar narahat dünyamızda müxtəlif din ardıcıllarının səy və qüvvələrinin birləşdirilməsinin nə qədər önəmli olduğunu bir daha sübut edir.

XXI əsrdə qloballaşma proseslərinin sürətləndiyi dövrdə terrorizm, ksenofobiya, antisemitizm, islamofobiya, ekstremizm və radikalizmin qarşısının alınması, dünyada sabitlik və əmniyyətin bərqərar olması üçün dövlət rəhbərlərinin, ictimai və dini liderlərin birgə, davamlı əməkdaşlığı vacibdir. Yeni Zelandiyada törədilən dəhşətli terror aktına dünyanın bir çox liderlərinin, beynəlxalq təşkilatların operativ və prinsipial mövqe nümayiş etdirməsi, heç şübhəsiz ki, təqdirəlayiqdir.

Beynəlxalq ictimaiyyətin haqlı qınağına səbəb olmuş bu hadisə bir daha sübut edir ki, dünyamızın əmin-amanlığı üçün dinlərarası dialoq və mədəniyyətlərarası əməkdaşlıq prioritet olmalı, dinc birgəyaşayışın önəmli şərti olaraq multikulturalizm və dinlərarası tolerantlıq ideyaları əsas götürülməlidir. Belə faciələrin təkrarlanmaması naminə dünya ictimaiyyəti ksenofobiyanın istənilən təzahürlərinin, o cümlədən islamofobiyanın qarşısının alınması üçün əlindən gələni əsirgəməməlidir.

Bu gün dünyada milli, irqi, dini ekstremizmi önləyə biləcək ən təsirli vasitə nümunəvi qarşılıqlı anlaşma mədəniyyətinin - multikultural həyat tərzinin qloballaşan dünyada təşviq edilməsidir. Azərbaycan dövləti məhz bu humanist məramları bəyan edir, təkcə İslam dünyası daxilində deyil, bütün səmavi dinlər arasında dostluq və qardaşlığın vacibliyini təlqin edir. Azərbaycanın bütün dünyada insan həmrəyliyinə xidmət edən qlobal təşəbbüsləri daha çox dəstək və ardıcıllara malik olarsa, bəşər belə faciələr yaşamaz.

"Biz, Azərbaycanın din xadimləri bir daha Yeni Zelandiyanın Kraystçerç şəhərində məscidlərə silahlı hücum aktını qətiyyətlə pisləyir, milyonlarla insanın iradəsini ifadə edərək dünya ictimaiyyətinə müraciət edir, Ulu Yaradanın buyurduqlarına zidd olan, sivil cəmiyyətlərə başucalığı gətirməyən belə halların bir daha təkrarlanmaması üçün bütün zəruri tədbirləri görməyə, dünya ictimaiyyətini öz səylərini daha sıx birləşdirməyə, əlindən gələni əsirgəməməyə çağırırıq. O Bir Olan Yaradanımızdan terror qurbanlarına rəhmət diləyirik".

Bəyanatı Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə, Bakı və Azərbaycan arxiyepiskopu Aleksandr və Azərbaycandakı Dağ yəhudiləri icmasının rəhbəri Melih Yevdayev imzalayıblar.

# Bakını hindlilər də çox sevir...

*Azərbaycana gələn turistlərin sayı ildən-ilə artır. Bu artım onların təmsil etdikləri ölkələrin sayında da müşahidə olunur. İndi ölkəmizə dünyanın ən müxtəlif yerlərindən qonaqlar üz tutur. O cümlədən, uzaq Hindistandan...*

*Hindlilər Bakını, xüsusilə İçərişəhəri çox xoşlayıblar. Əsrlərin yadigarı olan tikililərə, abidələrə heyranlıqla tamaşa edir, tariximizlə maraqlanır, bələdçilərə, tərcüməçilərə suallar verirlər.*

*Azərbaycana gələn turistlərin hamısını, eləcə də hindistanlıları valeh edən təkcə yurdumuzun gözəllikləri və xalqımızın qurub-yaratdıqları deyil. Buradakı xoş ab-havadan da məmnun qalırlar. Hər addımbaşı mehriban insanlarla üzə-üzə gəldiklərindən özlərini az qala evlərindəki kimi hiss edirlər...*

***"Azərbaycan"***
***Foto Ağaəli MƏMMƏDOVUNDUR***



# Ermənistan ordusu cəbhənin müxtəlif istiqamətlərində atəşkəs rejimini 21 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 21 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Berd rayonunun Mosesqex və Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam və Koxanəbi kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub. Tərtər rayonunun işğal altında olan Çiləbürt, Yarımca, Ağdam rayonunun Baş Qərvənd, Yusifcanlı, Füzuli rayonunun Kürdlər, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Tərtər rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

# Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının məlumatı

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasına daxil olmuş məlumata görə, Azərbaycan Respublikasının vətəndaşı, Qazax rayonunun Yuxarı Salahlı kənd sakini, 29.10.1986-cı il təvəllüdlü İbrahimov Elvin Arif oğlu cari il mart ayının 15-dən 16-na keçən gecə Qazax rayonunun Ermənistan Respublikasının Noyemberyan rayonu ilə sərhəd xəttində yolu azaraq qarşı tərəfə keçib.

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasından AZƏRTAC-a daxil olan məlumatda bildirilir ki, E.İbrahimov sərhədi keçərkən Ermənistan hərbçiləri tərəfindən açılmış atəş nəticəsində yaralanıb. Aidiyyəti beynəlxalq təşkilatlar E.İbrahimovun yaralanması və Ermənistan hərbçiləri tərəfindən saxlanılması faktını təsdiq edərək həyatı üçün təhlükənin olmadığını bildiriblər.

Dövlət komissiyası tərəfindən aparılmış ilkin araşdırma zamanı məlum olub ki, E.İbrahimov Qazax rayonlararası ruhi xəstəxanasında qeydiyyatdadır.

Dövlət komissiyası E.İbrahimovun azad olunması ilə bağlı aidiyyəti beynəlxalq təşkilatlara müraciət edib.

Məsələ ilə bağlı ictimaiyyətə əlavə məlumat veriləcək.

# Dövlət Sərhəd Xidməti: Ermənistanla sərhədi pozan şəxs ruhi əsəb xəstəsidir

Ermənistanın bəzi kütləvi informasiya vasitələrində Azərbaycan Respublikası vətəndaşının sərhəd pozucusu qismində saxlanılması barədə məlumat yayılıb.

Bu məlumatla əlaqədar Dövlət Sərhəd Xidməti bildirir ki, martın 15-dən 16-na keçən gecə Azərbaycan Respublikası ərazisindən müqabil istiqamətdə 1 nəfər naməlum şəxsin dövlət sərhədini pozması qeydə alınıb.

Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən bildiriblər ki, həmin şəxsin Qazax rayonunun Yuxarı Salahlı kənd sakini, 1986-cı il təvəllüdlü İbrahimov Elvin Arif oğlu olması müəyyən edilib.

Araşdırma zamanı həmin şəxsin ruhi əsəb xəstəliyi ilə əlaqədar 2-ci qrup əlil olması məlum olub.

Hazırda araşdırma işləri davam edir.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az

## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərenerji" ASC-nin prezidenti Baba Rzayev "Azneftkimyamaş" ASC-nin İdarə Heyətinin sədri

**ƏLİ QARAXANOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Sumqayıt Şəhər Məhkəməsinin sədri Zeyqəm Hüseynov 11 saylı poliklinikanın baş həkimi Nəriman Məmmədova anası

**HƏMİDƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8566
Sifariş 896
Qiyməti 40 qəpik